Günəş Şərqdən doğur!

❒ № 31 (5312), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 18 fevral 2021-ci il (cümə axşamı)



## Daha 154 nəfər yoluxub, 2 nəfər vəfat edib

Son sutkada 165 nəfər koronavirusdan sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 154 yeni yoluxma faktı qeydə alınıb, 165 nəfər müalicə olunaraq sağalıb.

(Səh.4)

## Bakıda qadına qarşı zorakılıq edən polis işdən qovuldu

Videogörüntülər DİN-də hərtərəfli və operativ araşdırılıb



Daxili İşlər Nazirliyi Yasamal rayonunda bərbərxanada qadına qarşı zorakılıq hərəkətləri edən polis əməkdaşı ilə bağlı araşdırmanı yekunlaşdırıb.

(Səh.14)

### Günün içindən...



## Nəriman Həsənzadə "İstiqlal" ordeni ilə təltif olunub

**Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Nəriman Həsənzadənin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda bildirilir:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram...

(səh.2)

## ABŞ-ın daha bir ştatında Xocalı soyqırımı barədə bəyanat qəbul edilib



ABŞ-ın Men ştatının Portlənd şəhərinin meri Ketlin M. Snayder 2021-ci il fevralın 26-nın Xocalı qətliamı qurbanlarının anım günü kimi qeyd olunmasına dair bəyanat imzalayıb.

(səh.5)

# Çörəyin bahalaşmasının qarşısı alınacaq



## Bunun üçün Ehtiyat Fondundan vəsait ayrılacaq

**İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi qaydasını təsdiq edəcək.**

Nazirlər Kabineti "Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər barədə" qərar verib.

(səh.2)

# Məlumatlar yalandı

## Məktəblərdə dərslər dayandırılmır

(səh.4)



## ✓ Əli Əsədov Türkiyəyə gedir

İri ticarət sazişlərinin imzalanacağı gözlənilir

(səh.2)

## ✓ "YAŞAT" daha iki qazinin və iki şəhid atasının əməliyyat xərclərini ödədi

(səh.3)

## ✓ Bill Qeyts: Koronavirusdan müdafiə üçün 3-cü peyvənd lazım olacaq

(səh.5)

## ✓ İctimai "wi-fi"yə qoşulmaq riskdir

"Bu ehtimalı nəzərə alaraq "wi-fi" parolunu paylaşmamaq ən etibarlı üsuldur"

(səh.15)



## "Xocalı dəhşətlərini xatırlamaq çox ağırdır"

Flora Qasımova: "Təsəvvür edin, qadın tanımadığı adamların qarşısını kəsib oğlundan danışırdı"

(səh.7)



## "Azıx mağarası Adəmlə Həvvanın yataq otağıdır"

*Tanınmış yazıçıdan roman kimi ifadələr*

(səh.9)

# Prezident İlham Əliyev 90 illik yubileyi münasibətilə Nəriman Həsənzadəni təbrik edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xalq şairi Nəriman Həsənzadəni təbrik edib.**

Təbrikdə deyilir:

"Hörmətli Nəriman Həsənzadə!

Sizi - müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə cansağlığı və yeni yaradıcılıq müvəffəqiyyətləri arzulayıram.

Siz ötən əsrin ortalarında ədəbiyyat aləminə qədəm qoyduğunuz vaxtlardan öz dəst-xəttinizi formalaşdırmış və geniş oxucu auditoriyasının ehtiramını qazanmısınız. Şair və dramaturq kimi uzunmüddətli səmərəli fəaliyyətiniz boyu yüksək sənətkarlıqla meydana gətirdiyiniz ədəbi əsərlər söz xəzinəmizə layiqli töhfədir. Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən bu əsərlər Sizi ədəbi prosesin ön mövqelərinə çıxarmışdır. Bədii-estetik kamilliyi ilə seçilən şeir və poemalarınıza dərin səmimiyyət, həssaslıq və güclü lirizm hakimdir. Dövrün mənzərəsini dolğun canlandıran və xalqımızın mübarizliyinin tərənnümünə çevrilən mənzum tarixi dramlarınız tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmış, teatrlarımızın repertuarında özünəməxsus yer tutmuşdur. Yaratdığınız poetik nümunələrə bəstələnən mahnılar dillər əzbəridir. Ziyalı vətəndaş mövqeyi nümayiş etdirərək ictimai sahədə göstərdiyiniz təqdirəlayiq fəaliyyət kitablarınızdakı fikir və düşüncələrinizi əməli surətdə gerçəkləşdirmək istəyinizin bariz təzahürüdür.

İnanıram ki, Siz vətənpərvərlik ruhu və əxlaqi-mənəvi saflıq aşılayan əsərlərinizlə Azərbaycan oxucusunu bundan sonra da sevindirəcəksiniz".

## Nəriman Həsənzadə "İstiqlal" ordeni ilə təltif olunub



**Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Nəriman Həsənzadənin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda bildirilir:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə "İstiqlal" ordeni ilə təltif edilsin.

## Əli Əsədov Türkiyəyə gedir

### İri ticarət sazişlərinin imzalanacağı gözlənilir

**Bu gün Türkiyədə Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 9-cu iclası keçiriləcək.**

Trend-in məlumatına görə, iclasda baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edəcək.

Səfər çərçivəsində Ə.Əsədov Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşəcək.

Komissiyanın iclası çərçivəsində Əli Əsədov və Türkiyənin vitse-prezidenti Fuat Oktay hər iki ölkədən 150 özəl sektor nümayəndəsinin qatılacağı Türkiyə-Azərbaycan İşgüzar Forumunun ümumi iclasında iştirak edəcəklər.

*Türkiyə mətbuatının məlumatına əsasən, ölkələr arasında dövlət və özəl sektorda ümumilikdə 100 milyon dollardan çox ticarət sazişlərinin imzalanması gözlənilir.*

## Moskvaya nota göndərməliyik

### "Qanun ləğv olunmasa, Qarabağa ordu yeritməliyik"



**Ermənistanın Dağlıq Qarabağla bağlı təxribatları davam edir. Yerli mətbuatın yazdığına görə, rus dili Dağlıq Qarabağda ikinci dövlət dili olacaq.**

"Dil haqqında" qanuna dəyişiklik layihəsinin qondarma parlamentdə müzakirə ediləcəyi ilə bağlı məlumatlar da cəmiyyətə ötürülüb. Layihəni əsaslandıranlar qeyd edir ki, Qarabağ və Rusiya arasında mədəni, hərbi, iqtisadi əlaqələrin tarixi yaddaşı nəzərə alınmalıdır. Qarabağlı üçün ikinci ünsiyyət dilinin rus dili olduğu bu baxımdan diqqətdə saxlanılır.

"Rus dilinin statusunun yüksəldilməsi bütün sahələrdə əməkdaşlığın dərinləşməsinə şərait yaradacaq və görünən odur ki, gələcəkdə bu, Rusiya ilə münasibətlərin qanuni çərçivədə inkişafına kömək edəcək", - erməni mediasında yayılan xəbərlərdə belə deyilir. Əlbəttə, bu, heç də ürəkaçan xəbər deyil. Müxtəlif ekspertlərin fikrincə, sözügedən təşəbbüsdə Moskvanın əli var.

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli də bu ehtimalı istisna etmir. O, "Şərq"ə açıqlamasında bildirib ki, vaxtında adekvat cavab verilməsə, kiçik qığılcım böyük alova çevrilə bilər:** "Əlbəttə, belə hal Azərbaycana qarşı provokasiyadır. Hansı haqla bizim torpağımızda bizim icazəmiz olmadan başqa dili dövlət dili elan edirlər?! Əlbəttə, bu, birbaşa Moskvanın razılığı ilə həyata keçirilir. Biz Rusiyaya nota göndərməli və etirazımızı bildirməliyik. Qanun ləğv olunmasa, Qarabağa ordu yeritməliyik. Çünki sözügedən addımlar həmin ərazilərin Azərbaycandan ayrılıb, Rusiyaya birləşdirilməsinə hesablanıb. Bu gün rus dili dövlət dili statusu alacaq, sabah pasportlar paylanacaq, ardınca isə torpaqlarımız Rusiyaya veriləcək. Buna imkan verməməli, Qarabağın Abxaziya və Osetiyanın taleyini yaşaması ilə barışmamalıyıq".

**Kənan**

# Çörəyin bahalaşmasının qarşısı alınacaq



## Bunun üçün Ehtiyat Fondundan vəsait ayrılacaq

**İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi qaydasını təsdiq edəcək.**

Nazirlər Kabineti "Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər barədə" qərar verib. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, un istehsalı ilə məşğul olan şəxslərə satılan unun hər tonuna görə bu Qərarın 2-ci hissəsi ilə müəyyən edilmiş qaydada 2021-ci il fevralın 1-dən mayın 1-dək olan dövrdə 35 (otuz beş) manat məbləğində subsidiya veriləcək.

İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi qaydasını təsdiq edəcək.

Eyni zamanda, İqtisadiyyat Nazirliyi un istehsalçılarına verilən subsidiyanın bu qaydaya uyğun ödənilməsini təmin etməli və un istehsalçılarına ödənilmiş subsidiya barədə icmal hesabatı 2021-ci il 1 iyun tarixinədək Nazirlər Kabinetinə təqdim etməlidir.

Bu Qərarın 1-ci və 2-ci hissələrinə uyğun olaraq subsidiyanın ödənilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının 2021-ci il Dövlət büdcəsinin Ehtiyat Fondundan müvafiq məbləğdə vəsait ayrılacaq.

İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə ərzaqlıq buğda ehtiyatının yaradılması və dünya birjalarında buğda qiymətlərinin ölkədaxili buğda qiymətlərinə təsirinin azaldılması üçün müvafiq tənzimləmə və nəzarət üzrə dayanıqlı mexanizmin formalaşdırılmasına dair təkliflərini 2 ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

*Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etməlidir.*

## Daha bir qazi protezlə təmin ediləcək



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları tarixi Zəfərimizin qəhrəmanlarından daha birinin - Əsgərzadə Bəkir Zakir oğlunun ailəsini ziyarət ediblər.**

Nazirlikdən "Şərq"ə bildirilib ki, B.Əsgərzadə Vətən Müharibəsində şərəfli döyüş yolu keçib, döyüşlərin birində ağır yaralanıb. Onun 5 nəfərdən ibarət ailəsinin (qazinin anası, atası, qardaşı, bacısı) sosial vəziyyəti öyrənilib. Ailənin əmək qabiliyyətli olan, lakin işləməyən üzvlərinin məşğulluq məsələlərinin həlli üçün işlər aparılır.

B.Əsgərzadənin yüksək texnologiyalı protezlə təmin edilməsi qərara alınıb. Bununla əlaqədar o, Nazirliyin Protez Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə dəvət edilib. Mərkəzdə ölçülər götürülüb, protezləşməyə hazırlıq üçün evə buraxılıb. Qısa müddət ərzində qazimiz yüksək texnologiyalı protez ilə də təmin olunacaq.

# Kreml Cənubi Qafqazı əldən vermək istəmir



## Rusiya qoşunları Qarabağda ciddi problemlər yaradır

**Dünən Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub. XİN başçıları Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 11 yanvar 2021-ci il tarixində Moskvada əldə etdikləri razılaşmaların həyata keçirilməsini, həmçinin ikitərəfli və beynəlxalq gündəliyin bir sıra aktual məsələlərini müzakirə ediblər.**

Məlum telefon danışığını "Şərq"ə şərh edən siyasi elmlər doktoru, professor Sabir Məmmədlinin sözlərinə görə, Rusiyanın davranışı onu sübut edir ki, onlar istənilən halda öz maraqlarını güdürlər: "Rusiya lazım olan məqamda Ermənistanın, başqa zaman isə Azərbaycanın xeyrinə addım atırmış kimi görüntü yaradır. Lakin istənilən məqamda başa düşürük ki, rəsmi Kreml bütün imkanlardan istifadə edib postsovet məkanında güclənməyə çalışır. Putin də bunu xüsusilə vurğulayırdı. Cəmiyyətimiz başa düşmür ki, Azərbaycan istənilən halda öz maraqlarından çıxış etməlidir. Azərbaycan, Xankəndi və ətraf ərazilərdə ermənilərin silahsızlaşdırılmaması Rusiya tərəfindən düşünülmüş qaydada həyata keçirilir".

S.Məmmədli qeyd edib ki, Rusiya qoşunları bizim üçün problem yaradırlar: "Bu problem də əsasən ondan irəli gəlir ki, Rusiya boynuna götürdüyü öhdəlikləri yerinə yetirmir. Üstəlik, Xankəndi və ətraf əraziləri qapalı məkana çevirərək, gələcəkdə prosesi uzatmaq istəyirlər ki, bölgədə mövcudluğunu qoruyub saxlaya bilsinlər. Cəmiyyətimiz aldanmalı deyil. Ruslar istənilən sahə və məkanlarda imperiya maraqlarından kənara çıxmaq istəmirlər. Bu da bizim kimi dövlətlərə təsir etməməlidir. Çünki müstəqil ölkəyik. Türkiyə addım-addım Azərbaycanda möhkəmlənir. Buna şərait yaratmaq lazımdır. Türkiyə qoşunlarının Azərbaycanda yerləşdirilməsindən çəkinmək lazım deyil. Təəssüf ki, belə qərar qəbul olunmayıb. Türkiyənin ölkəmizdə hərbi bazası yaradılmalıdır. Şəhidlərimiz və qazilərimizin qanı bahasına torpaqlarımızı azad etmişik, amma Rusiya həyasızlıq nümayiş etdirir. Kreml Cənubi Qafqazı əldən vermək istəmir. Çalışmalıyıq ki, Rusiyanı netrallaşdıraq. Cəmiyyət olaraq inadkarlığımızı ortaya qoymalıyıq".

**Yeganə Bayramova**

# Amerika Çinə qarşı "ikinci NATO"nu yaradır

## Elxan Şahinoğlu: "Siyasi ekspertlər yeni formatı "Asiyanın NATO"su da adlandırıblar"



ABŞ-Çin münasibətləri gərgin olaraq qalır. ABŞ Prezidenti Co Baydenin çinli həmkarı Tsi Tsinpinlə son telefon danışığı ikitərəfli münasibətlərə müsbət təsir etmədi. Tam əksinə, Bayden telefonda dedi ki, "uyğurların, Honkonqun və Tibetin haqlarına hörmət edin!". Tsi Tsinpin cavabı isə sərt oldu: "Daxili işlərimizə qarışmaqdan əl çəkin!". Yəni hərə öz mövqeyində qaldı.

Vaşinqton bu vəziyyətdə Pekinlə münasibətləri normallaşdıra bilməcəyək. Bu, mümkün deyil. Təsadüfi deyil ki, Bayden administrasiyasi Amerikanın dünyadakı əsas rəqibi kimi Rusiyanı deyil, Çini göstərib. Əlbəttə, Vaşinqtonun Rusiya ilə də münasibətlərdə xeyli problemi var. Ancaq Vaşinqtonda onu da qəbul edirlər ki, Çin bütün parametrlər üzrə Rusiyanı üstələyir.

Belə olan halda Vaşinqtonun Çinlə bağlı xüsusi planı varmı?

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu "Şərq"ə bildirib ki, Vaşinqton Çini durdurmaq üçün Asiya bölgəsində "dördtərəfli format"** - ABŞ, Yaponiya, Avstraliya və Hinidstan bloku yaratmağa çalışır: "Bununla bağlı Baydenlə Yaponiyanın Baş naziri Yoşihide Suqa arasında danışıqlar olub. ABŞ kimi Yaponiya da Çinin planlarından narahatdır. Tokio vaxt itirmədən "dördtərəfli formatın" sammitinin keçirilməsini təklif edib. Siyasi ekspertlər yeni formatı "Asiyanın NATO"su da adlandırıblar. "Birinci NATO"nun hədəfi Rusiyanı durdurmaqdısa, "ikinci NATO"nun məqsədi Çini ram etmək olacaq.

Beləliklə, Vaşinqton Asiya bölgəsində ən böyük siyasi və hərbi layihəsini reallaşdırmağa başlayıb. Bu format keçmiş prezident Donald Trampın dönəmində də müzakirə predmeti idi. 4 dövlətin xarici işlər nazirləri iki dəfə - 2019-cu ildə Nyu-Yorkda və 2020-ci ildə Tokioda bir araya gələrək gələcək əməkdaşlığın konturlarını müzakirə ediblər. Növbəti mərhələdə 4 ölkənin liderlərinin görüşünün təşkili nəzərdə tutulub.

Formatda Hindistanın iştirakı xüsusi əhəmiyyət daşıyır. Çünki son bir ildə Çinin regional gücə çevrilməsi siyasətini ən çox Hindistan öz üzərində hiss edib, sərhəddə baş verən insidentlər zamanı hər iki tərəfdən itkilər olub. Bu arada, Co Bayden Hindistanın Baş naziri Narendra Modi ilə də telefonla danışıb. Dehli yeni formatda iştiraka razıdır. Dehli Myanmarda hərbi çevrilişin arxasında Pekinin dayandığına əmindir. Myanmardakı çevriliş göstərdi ki, Pekin başqa istiqamətlərdə istədiyi nəticəni əldə edə bilər. Çinə qonşu olan ölkələri ehtiyatlandıran da budur".

**Analitikin qənaətincə, aydındır ki, Asiyada "ikinci NATO"nun formalaşdırılması Pekinin ciddi narahatlığına səbəb olacaq:**

"Yeni format Çinə işarədir ki, bölgədə onun siyasətindən narazı olan dövlətlər var və onların sayı getdikcə artır. İstisna deyil ki, gələcəkdə yeni formata Çinin siyasətindən ehtiyat edən başqa dövlətlər də qoşulsun.

Bu vəziyyətdə Çin cavab addımları ataraq öz ətrafında siyasi və ya hərbi blok yaratmağa çalışacaq. Lakin bu, asan olmayacaq. Əlbəttə, dünyanın bir çox ölkəsi Çinlə iqtisadi əlaqələri genişləndirmək və bu ölkə ilə birgə regional layihələrdə iştirak etmək istəyir. Ancaq beynəlxalq aləmdə çox az dövlət var ki, Çinlə eyni vahid hərbi blokda iştiraka razılıq versin".

*E.Şahinoğlu qeyd edib ki, Rusiya Çinin əsas tərəfdaşlarından biri olsa da, bu ölkə ilə vahid hərbi blok yaratmağa ehtiyatlı yanaşır:* "Məsələn, Rusiya Çinə görə Hindistanla düşmən olmaq istəmir. Rusiya Çinlə bərabər Hindistana da müasir silahlar satır. Kreml son illərdə Çinlə Hindistanı barışdırmağa çox çalışdı, amma nəticə əldə etmədi.

Mərkəzi Asiya ölkələri Çinlə sıx iqtisadi münasibətlərə malik olmalarına baxmayaraq, Pekinin regional siyasətindən ehtiyat edirlər. Əlbəttə, Mərkəzi Asiya ölkələri ABŞ-ın Çinə qarşı formalaşdırdığı hər hansı siyasi və hərbi blokda yer almayacaqlar, lakin siyasi və hərbi zəmində Çinlə yaxınlaşmağa da üstünlük verməyəcəklər.

Mərkəzi Asiya ölkələri Çin və Rusiya ilə yanaşı Qərblə də əlaqələrdən qopmaq istəmirlər. Çünki məhz bu siyasət vasitəsilə Rusiya və Çini müəyyən məsafədə saxlamaq mümkündür".

**Yeganə Bayramova**



# Üç medallı şəhidimizin övladı dünyaya gəldi

## Yeni doğulan körpəyə İlkinar adı verilib

**Vətən müharibəsində şəhid olan gizir Kazımov İlkin Xanməmməd oğlunun ikinci övladı dünyaya gəlib.**

"Qafqazinfo" xəbər verir ki, yeni doğulan körpəyə İlkinar adı verilib.

1995-ci il təvəllüdlü şəhidimizin digər qızı isə yaş yarımlıqdır.

Qeyd edək ki, Astaranın Artupa kəndindən olan gizir Kazımov Ağdərə-Füzuli istiqamətinə gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra Prezidentin sərəncamları ilə "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.

# "YAŞAT" daha iki qazinin və iki şəhid atasının əməliyyat xərclərini ödədi



**"YAŞAT" Fondu müharibədə yaralanan şəxslərin müalicə xərclərinin qarşılanması və şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi üzrə işləri davam etdirir.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən verilən məlumata görə, qazilərimiz Nazim Babayevin və Heydər Qurbanovun, səhidimiz Ağaəli Yusifovun atası Vaqif Yusifovun, şəhidimiz Hacırza Rzayevin atası Fikrət Rzayevin əməliyyat xərcləri Fond tərəfindən qarşılanıb.

*Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və Fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.*

# Putinlə Paşinyan arasında telefon danışığı olub

## Liderlər üçtərəfli bəyanatın icrasını müzakirə etdilər

**Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında telefon söhbəti olub. Söhbət zamanı zamanı Qarabağla bağlı üçtərəfli bəyanatın icrası müzakirə olunub.**

Bu barədə Kremlin yaydığı məlumatda deyilir.

"Rusiya, Ermənistan və Azərbaycan liderlərinin Dağlıq Qarabağa dair 2020-ci il 9 noyabr tarixli bəyanatının, həmçinin 2021-ci ilin 11 yanvar tarixində Moskva şəhərində keçirilmiş üçtərəfli sammitdə əldə olunmuş razılaşmaların yerinə yetirilməsilə bağlı məsələlər müzakirə olunub", - bildirilir.

Həmçinin iki ölkə arasındakı əlaqələr də müzakirə olunub, müxtəlif səviyyələrdə əlaqələrin davam etdirilməsi razılaşdırılıb.

# Rəsmi İrəvan yanlış yoldadır

## Akif Nağı: "Üçüncü Qarabağ savaşı qaçılmaz olacaq"



**Məlum olduğu kimi, bir neçə gün öncə Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə Laçın rayonuna səfər edib. Dövlət başçısı Laçının Güləbird kəndində çıxış edərkən bir sıra mühüm məqamlara toxunub. O, həmçinin beynəlxalq aləmə mesaj verib:**

"Bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın".

Görünür, ermənilər aqibətlərindən nəticə çıxarmayıblar və hansısa möcüzəyə inanırlar. Halbuki, bundan sonra hətta möcüzə də onlara kömək edəsi deyil. Düşmən hərbi-siyasi hakimiyyəti son şansını da çoxdan itirib.

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı dövlət başçısının sözügedən bəyanatı barədə "Şərq"ə danışarkən dedi ki, ermənilər bu mesajı düzgün qiymətləndirməlidirlər:** "Düşmən hələ də nəyəsə ümid edir və belə demək mümkünsə, çırpınır. Qondarma rejimi müstəqil kimi tanıtmaq cəhdləri buna sübutdur. Rus dilini ikinci dövlət dili elan etməklə isə Kremlə sığınmaq və beləliklə, mövcudluqlarını qorumaq istəyirlər.

Azərbaycanın tarixi zəfəri düzgün nəticə çıxarmaq üçün onlara ipucu olmalıdır. Rəsmi İrəvan yanlış yoldadır.

Düşmən yalnız şərtlərimizi qəbul etdiyi təqdirdə mövcudluğunu qoruya bilər. Düzdür, nəticə çıxarmayacaqları və revanşist meyillərə davam edəcəkləri təqdirdə isə üçüncü Qarabağ müharibəsinin başlanması qaçılmazdır. Budəfəki nəticələr isə düşmən üçün daha ağır olacaq".

**Kənan**



## Məlumatlar yalandı

### Məktəblərdə dərslər dayandırılmır

**Təhsil Nazirliyi məktəblərdə əyani tədrisin iki həftədən sonra dayandırılacağı ilə bağlı yayılan məlumatlara münasibət bildirib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov Trend-ə açıqlamasında bu məlumatların yalan olduğunu söyləyib.

Onun sözlərinə görə, hazırda məktəblərdə əyani tədris davam etdirilir. Əyani tədrisin dayandırılacağı ilə bağlı hər hansı rəsmi qərar verilməyib:

"Bu qərar ölkənin sanitar-epidemioloji vəziyyəti nəzərə alınmaqla verilir. Məktəblərdə tədrisin başlanılacağı və ya dayandırılacağı barədə qərarı Təhsil Nazirliyi deyil, Nazirlər Kabineti verir!

*Qeyd edək ki, oktyabrın ortalarında pandemiya ilə əlaqədar ölkədə əyani tədris dayandırılmışdı.*

*Fevralın 1-dən ölkə üzrə təhsil müəssisələrində ənənəvi tədris mərhələli şəkildə qismən bərpa edilib.*

## Daha 154 nəfər yoluxub, 2 nəfər vəfat edib

### Son sutkada 165 nəfər koronavirusdan sağalıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 154 yeni yoluxma faktı qeydə alınıb, 165 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 232 491 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 227 116 nəfər müalicə olunaraq sağalıb, 3 187 nəfər vəfat edib, aktiv xəstə sayı 2 188 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 758, ötən müddət ərzində isə ümumilikdə 2 521 394 test aparılıb.

## İranda güclü zəlzələ baş verib, xəsarət alanlar var



**İranın cənub-qərbində yerləşən Kohgiluyə və Buyir-Əhməd vilayətində baş verən zəlzələ nəticəsində indiyədək 10 nəfər yaralanıb. Trend-in məlumatına görə, bunu İranın Təcili Yardım Təşkilatının sözüsü Muctaba Xaledi deyib.**

M. Xaledinin sözlərinə görə, yerli vaxtla 22:05 radələrində baş verən zəlzələ ilə əlaqədar 4 araşdırma qrupu bölgəyə ezam olunub. Bölgədə təcili yardım maşınları hazır vəziyyətə gətirilib.

Xaledi əlavə edib ki, indiyədək zəlzələnin ölümlə nəticələnməsi haqda məlumat yoxdur.

Qeyd edək ki, bu gün İranın Kohgiluyə və Buyir-Əhməd vilayətində 5,6 bal gücündə, ocağı 10 km dərinlikdə yerləşən zəlzələ qeydə alınıb.

# "Azəriqaz" vətəndaşları soyur

## Deputatın biri şikayətləri haqlı sayır, digəri isə yox



Günlərdir müzakirə obyektinə çevrilən qaz sayğacları haqqında vətəndaşların şikayətləri hələ də səngiməyib.

İnsanlar smart tipli sayğacların köhnələri ilə əvəzlənməsindən narazıdırlar. Səbəb isə köhnə sayğacların üzərində əvvəldən borcun olması və bu borcun həddən çox yazılmasıdır.



"Azəriqaz" İB isə əvvəl gah müddəti 5 ili ötmüş yeni sayğacların baxışdan keçməli olduğunu, gah da smart kart tipli sayğacların baha olmasını bəhanə edərək açıqlama verməyə çalışdı. Nəticədə isə hələ də öz əməllərinə davam edirlər.

Sayğaclar köhnələri ilə əvəz olunur, həm də bu, insanların özlərinə xəbər edilmədən həyata keçirilir. Vətəndaşlar da qazdan gələn bildirişlərin üzərində həddən çox məbləğ yazıldığını görüb haqlı olaraq etiraz edirlər.

Onlar deyir ki, bu qədər məbləğdə qaz sərfiyyatı etməmişik. "Azəriqaz" isə yenə də qazın artıq pulunu soyuqqanlılıqla əhalidən almağa çalışır.

İş o yerə çatıb ki, mövzu Milli Məclisin deputatları arasında da müzakirəyə səbəb olub. Onlar da smart tipli qaz sayğaclarının mexanikilərlə əvəz olunmasını qəbuledilməz hesab ediblər.

**Məsələ haqqında "Şərq"ə fikir bildirən millət vəkili Azay Quliyev dedi ki, "Azəriqaz" İB-nin fəaliyyətinə nəzarət etmək üçün ictimai şura yaradılır:** "Azəriqaz"ın fəaliyyətinə ictimai nəzarəti təmin etmək üçün İctimai şura yaradılır. Şura qeyd edilən məsələlər də daxil olmaqla bütün şikayətləri araşdıracaq".

**Deputat Razi Nurullayev də ona bu barədə şikayətlərin daxil olduğunu və şikayətlər haqqında "Azəriqaz"ın rəhbəri Ruslan Əliyevlə danışdığını bildirib:** "Mən bu barədə Ruslan müəllimlə bir neçə dəfə əlaqə saxlamışam.

"Azəriqaz"ın yanında yoxlama mərkəzi var. Bir çox insan öz sayğacını aparıb orada yoxlatdırır. Onlar ekspertizada müəyyən edə bilirlər ki, köhnə sayğac indikindən çox, ya da az yazır. Mən özüm buna şahidlik etmişəm.

Üstəlik, "Azəriqaz"da 2 və 4-cü günlər açıq qapı günü keçirilir. Vətəndaşlar şikayət və ərizələrini götürərək ora müraciət edib bu məsələni yerindəcə öyrənə bilərlər.

Bu məsələlərdən sonra mən "Azəriqaz"ın rəhbərinin feysbukda canlı yayımda açıqlamalarını izlədim. Orada vətəndaşların suallarına birbaşa özü cavab verirdi. Bu gün də həmin şikayətləri özü qəbul edir".

Millət vəkili təkcə bu yox, hər məsələdə xalqın yanında olduğunu qeyd etdi və onu da dedi ki, "Azəriqaz"ın sayğacı köhnəsi ilə əvəz edib xalqdan ikiqat çox pul alıb onları aldatmasına heç cür inanmır:



"Hesab edirəm ki, bu boyda dövlətdə xalqı və hökuməti bu dərəcədə aldatmaq olmaz, inanmıram ki, belə bir şey edilsin. Bunu etmək çox böyük cinayət olar.

Mən bununla bağlı vətəndaşlar arasında sorğu da keçirdim. Dedim ki, mənə keçən ilin yanvar ayının qəbzi ilə bu ilin yanvar ayının bildirişlərini verin, biz çıxarış edək ki, nə qədər qaz sərfiyyatı olub. Təəssüf ki, bunu da heç kim təmin edə bilmədi. Yəni ortada fakt olmalıdır. "Azəriqaz" və onun rəhbərliyi isə məsələyə biganə qalmır. Deyir ki, gətirin sübutlarınızı, biz onlara baxaq və məsələni həll edək.

Mən inana bilmirəm ki, həmin sayğaclar çox yazsın. Çünki onlar "Azəriqaz"a çatana qədər bir neçə qurumdan keçib təsdiqlənir ki, həqiqətən də istifadəyə yararlıdır. Əgər doğrudan da yeni qoyulanlar çox yazırsa, deməli, həmin qurumların da burada ciddi günahları var və onlar özləri üçün böyük bir şəbəkə yaradıblar".

*Deputat R.Nurullayev sayğacların vətəndaşlardan xəbərsiz quraşdırılması ilə bağlı münasibət bildirdi:*

"Əgər xəbərsiz qoyulub xəbər olunmayıbsa, bununla bağlı insanlar şikayətlərini aktlaşdırıb "Azəriqaz"a göndərməlidirlər. Müəssisənin rəhbərliyi də deyir ki, sayğacların dəyişdirilməsi vətəndaşlarla razılaşdırılır. Onlar razılaşmasa sayğac da dəyişilmir.

Yəqin ki, bunu hansısa idarələr özbaşına edirlər. Əhali bunu mütləq "Azəriqaz"a və şəxsən mənə söyləyə bilərlər. Mən özüm bu şikayətləri onların rəhbərliyinə çatdıraram".

**Ağarza Elçinoğlu**

# Sarkisyanın siyasi gələcəyi yoxdur

## Daha erməni cəmiyyəti sabiqlərə inanmır

Ermənistanın 3-cü prezidenti Serj Sarkisyan uzun müddətdən sonra yenidən geniş müsahibə verib. Sarkisyan 2016-cı ildə baş vermiş dördgünlük aprel savaşında Azərbaycanın "ağır itki" verdiyini və savaşın "rəsmi Bakının xahişi ilə dayandırıldığını" iddia edib.



Erməni mediasının böyük həvəslə tirajladığı müsahibədə Sarkisyan özündən "qəhrəman" düzəltmək üçün hər şeyə baş vurub. Həyasızcasına faktları təhrif etməyə çalışıb. Yəqin, eks prezident güman edir ki, 44 günlük Vətən savaşında ağır hərbi və psixoloji zərbə alan erməni ictimaiyyətinin yaddaşı məhv olub və aprel savaşı da unudulub. Aprel savaşında ermənilərin illərlə qurduğu "Ohanyan səddi"nin 45 dəqiqə ərzində darmadağın edildiyi və Lələtəpənin işğaldan azad olunması hamının xatirindədir. Sarkisyan özü belə həmin ərəfədə faktiki olaraq məğlubiyyətini etiraf etmişdi. Ermənistan ordusunun ilk həmlədə darmadağın olması uzunmüddətli istintaq prosesinin də başlanmasına səbəb olmuşdu. Heç şübhəsiz, dördgünlük savaşın dayandırılmasının səbəbi Rusiyanın müdaxiləsi və ən əsası isə Sarkisyanın müəyyən vədlər verməsi idi. Sarkisyan münaqişənin "5+2" formatında həllinə razılıq vermiş, üzərinə öhdəlik götürmüşdü. Ancaq gözlənildiyi kimi xunta rejimi heç bir danışığa getmədi və vədinə xilaf çıxdı. Sarkisyan hakimiyyətin ötürülməsi və istefası barədə də yalan danışmaqdan çəkinməyib. Bildirib ki, guya, istefaya gedəcəyi halda Karen Karapetyandan hakimiyyəti əlinə almağa hazır olub-olmadığını soruşub, "hə" cavabı alandan sonra isə onu həmin vaxt təcridxanada olan Paşinyanın yanına göndərib. Lakin Karapetyan onun təlimatını olduğu kimi icra etməyib. Bəllidir ki, Sarkisyan hakimiyyəti Karapetyana ötürməyə cəhd etsə də, Rusiyanın dəstəyini ala bilmədi. O dövrdə Paşinyanın başa keçəcəyinə heç kim şübhə etmirdi. Sarkisyanın öhdəliklərindən yayınmağa çalışan Baş nazir Nikol Paşinyan isə müharibə ritorikasından başqa çıxış yolu tapmadı. "Yeni müharibə və yeni ərazilər", "Qarabağ Ermənistandır" kimi təhlükəli şüarlar məhz bu cür meydana gəldi. Məsələ ondadır ki, Sarkisyanın absurd ittihamlarına erməni cəmiyyəti də inanmır. Ermənistanın Təhlükəsizlik Şurasının sədri Armen Qriqoryan deyib ki, aprel savaşı ozamankı prezident Serj Sarkisyanın verdiyi vədlər, eləcə də onların reallaşma qrafikinin təqdimatından sonra Azərbaycanı qane etdiyi üçün dayandırılıb: "Aprel müharibəsi erməni tərəfinin vədlərinə görə dayandırılıb. Yayda Sasna Çrer hadisəsi baş verdi ki, Sarkisyan bundan istifadə edib, vədlərin reallaşmasını 2017-ci ilin aprelinə qədər, daha sonra isə hakimiyyətin tranzitinə qədər təxirə saldı. Bu insan çoxsaylı vədlər verərək, Ermənistan üçün belə bir yük yaradıb. Mən dəqiq şəkildə bəyan edirəm ki, onun vədləri, yaratdığı dalanlar ucbatından biz ciddi problemlərlə qarşılaşdıq".

Siyasi şərhçilərin fikrincə, Sarkisyan Ermənistanı yox, özünü xilas etmək üçün var-gücü ilə çarpışır. Ancaq görünən odur ki, eks prezidentin yeni və köhnə erməni siyasi elitasında bir qəpiklik hörməti yoxdur. Azərbaycanla bağlı danışıqlar barədə dedikləri isə tamamilə cəfəngiyyatdır.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, Sarkisyan keçmiş səhvlərinə görə özünə bəraət qazanmağa, "sudan quru çıxmağa" çalışır.** Ekspertin sözlərinə görə, son günlər həm Koçaryanın, həm də digər siyasi xadimlərin açıqlamaları bütün günahların əsas baiskarı kimi Serj Sarkisyanı hədəf göstərir: "Koçaryan öz müsahibələrində dolayı yolla vurğulayır ki, onun hakimiyyəti illərində vəziyyət yaxşı olub. Amma Sarkisyanın kresloya əyləşməsindən sonra Yerevan təzyiqlərə məruz qalıb və proseslərə nəzarətini itirib. Sarkisyan özünə qarşı suçlamalardan xilas olmaq üçün belə bir müsahibəyə ehtiyac duyub. Sabiq prezident hər zaman olduğu kimi yenə də yalanlara baş vurub. Hakimiyyəti dövründə həqiqəti əks etdirməyən açıqlamalar verən, hamını ittiham edən Sarkisyan öz ənənəsindən əl çəkməyib. İndi də başqalarını ittiham edir, əsassız fikirlər səsləndirir və özünü "qəhrəman" kimi təqdim etməyə cəhd göstərir. Lakin ziddiyyətli ifadələri ilə öz-özünü ifşa edir. Gah deyir "heç bir rayonu qaytarmaq fikrində deyildim", gah da deyir "Madriddə 5+2 modeli müzakirə olunub". Koçaryan kimi keçmiş fəaliyyəti ilə lovğalansa da, Ermənistanın fəlakətdən necə çıxması barədə heç nə təklif etmir. Sabiq rəhbərin budəfəki müsahibəsi də erməni xalqının dərdinə yanmaq məqsədi güdmür. Niyyəti özünü təmizə çıxartmaqdır. Amma onun da, ətrafına yığılanların da siyasi gələcəyi yoxdur".

**İsmayıl Qocayev**

## ABŞ-ın daha bir ştatında Xocalı soyqırımı barədə bəyanat qəbul edilib

**ABŞ-ın Men ştatının Portlənd şəhərinin meri Ketlin M. Snayder 2021-ci il fevralın 26-nın Xocalı qətliamı qurbanlarının anım günü kimi qeyd olunmasına dair bəyanat imzalayıb.**

Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, belə bir bəyanatın imzalanması Men Azərbaycan Cəmiyyətinin rəhbəri Tərlan Əhmədovun təşəbbüsü ilə baş tutub. Bəyanatda Xocalı soyqırımının 29-cu ili haqqında yazılıb, qətlə yetirilən azərbaycanlıların sayı qeyd olunub və faciənin insanlıq əleyhinə törədilmiş ən böyük qətliamlardan biri olduğu bildirilib. Diqqətə çatdırılıb ki, Xocalı qətliamı dünyada insanlıq əleyhinə yönəlmiş cinayətlərdən biridir.

ABŞ-ın Men ştatında belə bir bəyanatın qəbul edilməsi Amerika azərbaycanlılarının Xocalı soyqırımının ildönümü ərəfəsində ən böyük uğuru kimi qiymətləndirilə bilər.

## Bill Qeyts: Koronavirusdan müdafiə üçün 3-cü peyvənd lazım olacaq



**"Microsoft" şirkətinin qurucusu Bill Qeyts əmindir ki, insanları koronavirusdan müdafiə etmək üçün üç mərhələdə peyvənd etmək lazım olacaq.**

Bu barədə "Report" TASS-a istinadən xəbər verir. İş adamının fikrincə, vaksinin üçüncü mərhələsi virusun mutasiyaları nəzərə alınaraq dəyişdiriləcək. "İndi əsas məsələ bizim vaksinasiyanı ümumi vasitələrlə və metodlarla təmin etməyin lazım olub-olmaması və ya üç mərhələdə peyvənd etməyin zəruriliyi, yaxud vaksini dəyişməyin tələb olunmasıdır", - Bill Qeyts deyib.

Onun sözlərinə görə, mütəxəssislər artıq vaksinin dəyişilmiş variantlarının yaradılması imkanını araşdırırlar. "Microsoft"un banisi vurğulayıb ki, iki dəfə peyvənd edilən şəxslərin ola bilsin, üçüncü dəfə də peyvənd olunması ehtimal edilir.

"Çox güman ki, bu mutasiyalar ABŞ-a çatana qədər bizdə təkmilləşdirilmiş vaksin olacaq, biz onlardan müdafiə olunmağımıza tamamilə əminik", - Qeyts əmin olduğunu vurğulayıb.

Daha əvvəl iş adamı özü də koronavirusdan peyvənd edilib. O, birinci dozanı aldığını bildirib və COVID-19 preparatının yaradıcılarına təşəkkür edib.

# İki ölkə arasında ciddi qarşıdurma var

## Məhəmməd Əsədullazadə: "Amerika Rusiyaya qarşı NATO ölkələrini hərəkətə gətirir"

Pentaqonun yüksək səviyyəli rəsmisi Rusiyanın NATO müttəfiqləri üçün təhlükə yaratdığını bildirib. Onun sözlərinə görə, Rusiya məqsədinə çatmaq üçün hərbi gücdən istifadə edir.

Pentaqon rəsmisi vurğulayıb ki, ABŞ Rusiyanın dəfələrlə təhlükəsizliyi və sabitliyi pozmağa çalışdığına dair nümunələrin şahidi olub:

"Bütün bunlara baxmayaraq, Vaşinqton qarşılıqlı maraq doğuran sahələrdə Rusiya ilə əməkdaşlıq edə bilər. Biz öz maraqlarımızı inkişaf etdirmək üçün Rusiya ilə çalışacağıq, lakin təcavüzkar hərəkətlərinə görə onları məsul hesab edəcəyik".

Qeyd edək ki, fevralın 17-18-də Pentaqon rəhbəri Lloyd Ostinin də iştirak edəcəyi NATO-ya üzv ölkələrin müdafiə nazirlərinin videokonfrans formatında iclası keçiriləcək. Toplantıda Rusiya mövzusu müzakirə olunacaq.



ABŞ-dakı hakimiyyət dəyişikliyi geosiyasi konfiqurasiyada yeniliklərə səbəb oldu. Məsələn, yaxın zamanlarda Amerika və Rusiya arasındakı gərginlik, iki dövlətin bir-birini qarşılıqlı ittiham etməsinin şahidi oluruq. Görəsən, mövcud durum sonda müharibə ilə nəticələnə bilərmi?

**Sualımızı cavablandıran politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, Co Bayden hakimiyyətə gəldikdən sonra Rusiyanı Amerikanın bir nömrəli rəqibi elan edib:** "ABŞ həmçinin Rusiyanın regionda beynəlxalq münasibətlər sistemində mövqeyini zəiflətmək üçün bütün parametrlərdən istifadə edir. Pentaqondan verilən açıqlama Rusiyaya qarşı təzyiq mexanizminin başlamasıdır. Vaşinqton Rusiyanın NATO-ya üzv ölkələrə təhdid olduğunu əsas gətirərək, Rusiyaya qarşı hərbi-siyasi nizam formalaşdırır. Məsələn, Pentaqon rəsmisi bildirir ki, Rusiya NATO ölkələrinə qarşı təhdiddir. Amerika bu açıqlama ilə yeni bazalarını gətirib Avropa istiqamətində Rusiyaya qarşı yerləşdirmək istəyir. Göründüyü kimi iki ölkə arasında ciddi qarşıdurma var. Amerika beynəlxalq münasibətlərdə yeni nizamın formalaşmasına çalışır. Amerika bu nizamla Rusiya Prezidenti Vladimir Putinin çoxqütblü dünya yaratmaq stategiyasının qarşısını almağa çalışır. Vaşinqton məhz bu xüsusda da NATO müttəfiqlərini bir araya gətirəcək və Rusiyaya qarşı yeni koalisiyanın formalaşması istiqamətində işlərə başlayacaq".

**Politoloq Amerika-Rusiya arasında hərbi toqquşmanın olacağını düşünmür:** "Rusiya bu qarşıdurmaya getməz. Çünki bu artıq üçüncü dünya müharibəsi deməkdir. Lakin qarşıdurmanı davam etdirəcəklər. Şərqi Avropa, Ukrayna, həmçinin Belarus istiqamətində Rusiya üçün hərbi təhlükə ola bilər".

**Yeganə Bayramova**

# "Televiziyadakı verilişlərlə bağlı müəyyən narahatlıqlar var"



## Qulu Məhərrəmli: "Bir görüşlə heç bir telekanalın səviyyəsini yüksəltmək mümkün deyil"

Mədəniyyət naziri Anar Kərimov ölkədə fəaliyyət göstərən televiziya kanalları rəhbərləri ilə görüş keçirib. Görüşdə Rövşən Məmmədov (AzTV), Mirşahin Ağayev (Real TV), Balakişi Qasımov (İctimai Televiziya), Kamil Şahverdiyev (Space TV), Murad Dadaşov (Xəzər TV), Azər Xəlilov (Azad Azərbaycan TV), Vüqar Xəlilov (CBC TV), Radik İsmayılov (ARB TV) və Lider TV-nin nümayəndəsi Nazxanım Bağırova iştirak edib.

A.Kərimov Mədəniyyət Nazirliyi sistemində həyata keçirilən islahatlardan söz açıb. Nazir həmçinin dövlət başçısının tapşırığına uyğun olaraq mədəniyyət sahəsində həyata keçirilən islahatların və yeniliklərin ictimaiyyətə təqdim edilməsi prosesinə televiziyaların da dəstək göstərməsinin əhəmiyyətini qeyd edib.

Diskusiyalarda vətənpərvərlik mövzusunda verilişlərin hazırlanması, mədəniyyətin müxtəlif sahələrində insan resurslarının inkişafı, cizgi filmlərinin istehsalı və yayımı müzakirə edilib. Kino sahəsindəki yeniliklər və bu sahədə görüləcək işlər, eləcə də televiziyaların "Azərbaycanfilm" kinostudiyası ilə əməkdaşlıq məsələləri də görüşün müzakirə obyektlərindən olub.

Zaman-zaman televiziyalarımızda yayımlanan bəzi proqramlar barədə tənqidi fikirlər səslənib. Cəmiyyətə mənfi təsir edən, milli, mədəni dəyərlərimizə uyğun olmayan müxtəlif proqramlar yayımlanır. Hətta kifayət qədər bayağı verilişlərin də şahidi oluruq. Bu hal xoş qarşılanmasa da, problem həll olunmur.

Bəs, sözügedən görüşün keçirilməsi bu sahədəki çatışmazlıqları aradan qaldıra bilərmi?

**Media eksperti, professor Qulu Məhərrəmli "Şərq"ə açıqlamasında belə görüşlərin keçirilməsinin vacib olduğunu vurğulayıb:** "Lakin Mədəniyyət Nazirliyinin konkret istəkləri, televiziyalara nələri tövsiyə etdiyi bir görüşlə müzakirə oluna bilməz. Fikrimcə, davamlı fikir mübadiləsi aparılmalıdır. Televiziya əməkdaşlarının digər nazirliklərlə, məsələn, Təhsil Nazirliyi ilə də görüşləri olmalıdır. Əlbəttə, televiziyalarımızdakı verilişlərlə bağlı müəyyən narahatlıqlar var.

Yalnız mədəniyyətlə yox, təhsillə bağlı da narahatlıq doğuran məqamlar olur. Ölkə əhalisinin maariflənməsi vacibdir. Lakin bu məsələlər mahiyyət etibarı ilə görüşlər nəticəsində həll olunmur".

**Professor qeyd edib ki, televiziyalarla bağlı fikir mübadiləsi və düşüncələrin yenilənməsi məsuliyyət baxımından önəmlidir:** "Amma bir görüşlə heç bir telekanalın səviyyəsini yüksəltmək mümkün deyil. Bizdə normal mədəniyyət verilişləri olsa və əlbəttə ki, bu, şou xarakterli yox, ciddi platforma kimi fəaliyyət göstərsə, müsbət nəticələr əldə olunar.

Nazirliyin keçirdiyi görüş o halda effektli ola bilər ki, televiziyalara konkret layihələr təqdim olunsun və onun icra mexanizmi göstərilsin. Məsələn, vaxtilə İctimai Televiziyada Təhsil Nazirliyinin proqramı var idi. Həmin proqram gənclərin təhsillə bağlı bacarıqlarını tənzimləyirdi və yaxşı da izlənilirdi.

Bu cür layihələrin və ideyaların reallaşmasına kömək etmək əslində televiziyalara yardımdır".

**Yeganə Bayramova**

# "Ermənistan Kremlin "yol xəritəsi"ni gözləyir"

## Əhməd Əlili: "Ümumiyyətlə, Ermənistanın Kremlin "məsləhətlərinə" ehtiyacı var"



**Bu gün Moskvada Rusiyanın Xarici işlər naziri Sergey Lavrovla ermənistanlı həmkarı Ara Ayvazyan arasında görüş olacaq. Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb. Məlumata görə, XİN başçıları ikitərəfli əlaqələri, regional və beynəlxalq məsələləri müzakirə edəcəklər.**

Maraqlıdır, ikitərəfli görüş nəyə hesablanıb? Yoxsa, bu işin də içində bir iş var? Ola bilərmi ki, Ayvazyan ziyarət adı ilə həm də ticarət etsin?

**Bu barədə "Şərq"ə danışan politoloq Əhməd Əlilinin fikrincə, gələcəkdə belə dialoqlar intensivləşəcək:** "Rusiya ilə Ermənistan arasında spesifik əlaqələr var. Belə ki, düşmən ölkə şimal qonşumuzun təşkil etdiyi, demək olar, bütün beynəlxalq təşkilatların üzvüdür. Bu isə tərəflərin tez-tez görüşlər keçirməsini şərtləndirir.

Ümumiyyətlə, Ermənistanın Kremlin "məsləhətlərinə" ehtiyacı var. Hələ 2008-ci ildə Ermənistan sülh protokolunu imzalayarkən Lavrovun o vaxtkı həmkarı Edvard Nalbandyana amiranə formada "İmzala!" deməsi kadrlara düşmüşdü.

Bu fakt özü erməni diplomatları üçün Moskvanın təlimatlarının nə qədər vacib olduğunu göstərir. Həm də Ermənistan üçün fövqəladə dövrdür.

Müharibədə uduzmuş rəsmi İrəvan daxili və xarici siyasətini müəyyənləşdirməkdən ötrü Kremlin "yol xəritəsi"ni gözləyir. Deməli, bundan sonra ikitərəfli görüşlər təkrarlanacaq".

**Kənan**

# İran da bizə dəstək verəcək

## Çünki onlar da çirklənmiş çaylardan əziyyət çəkirlər

Ermənistanın Metsamor şəhərində yerləşən atom elektrik stansiyası yenidən beynəlxalq mediada aktual mövzuya çevrilib. Avropa Komissiyasının 2020-ci il üzrə hesabatında qeyd edilib ki, "Metsamor" AES tezliklə bağlanmalı və təhlükəsiz şəkildə istismardan çıxarılmalıdır. Vurğulanıb ki, stansiyanın nüvə təhlükəsizliyi ilə bağlı beynəlxalq standartlara uyğun yenilənməsi mümkün deyil. Mütəxəssislər də bildirirlər ki, köhnə və zəruri təhlükəsizlik tələblərinə cavab verməyən "Metsamor" AES regional fəlakət mənbəyidir.

Bu stansiyada hər hansı ciddi qəza baş verəcəyi təqdirdə, region dövlətlərinin əhalisinin, təbiətinin və iqtisadiyyatının ciddi zərər görməsi qaçılmazdır. Bu səbəbdən də həm region dövlətləri, həm qlobal güc mərkəzləri, həm də beynəlxalq təşkilatlar "Metsamor" AES-in bağlanması ilə bağlı Ermənistandan öhdəliyinə əməl etməsini tələb etməli, bu məqsədlə təzyiq göstərməli, lazımi hüquqi addımlar atmalıdır. Xatırladaq ki, Ermənistan AES-nin istifadə müddətini 2026-cı ilə kimi uzatmaq qərarını qəbul edib. Stansiya təkcə istismar müddətinin bitməsi, köhnəlmiş texnologiyalarla deyil, istifadə edilmiş yanacaqları, kimyəvi tullantıları baxımdan da çox təhlükəlidir.





**Qarabağ Azadlıq Təşkilatının rəhbəri Akif Nağı "Şərq"ə bildirib ki, "Metsamor" AES sadəcə region deyil, dünya üçün, bəşəriyyət üçün təhlükə mənbəyidir. QAT sədrinin sözlərinə görə, ermənilər bu cür məqamlardan öz məqsədləri üçün istifadə etmək üçün çalışıblar:** "Ermənilər bədniyyətli toplumdur. Heç vaxt yaxşı düşüncədə olmurlar, bəşəriyyətin xeyrinə olan addımı atmırlar. Uzun illər işğal altında saxladıqları torpaqlarımızdan öz çirkin ambisiyaları üçün istifadə etdikləri kimi indi də "Metsamor" AES-dən mümkün qədər faydalanmağa çalışırlar. Ermənilər bu yararsız və təhlükəli stansiya ilə dünyaya meydan oxuyur. 3-4 il bundan əvvəl millət vəkili Azay Quliyevin təşəbbüsü ilə anti-Metsamor koalisiyası yaradıldı. Bu bloka Azərbaycan, Türkiyə, İran, Rusiya, Ukrayna və Avropanın müxtəlif ölkələrindən nümayəndələr qoşuldu. Hətta koalisiyaya xaricdə yaşayan ermənilər də cəlb olunmuşdu. Onlar da "Metsamor"un təhlükəli olduğunu etiraf edirdilər. Əfsuslar olsun ki, nəticə olmadı".

## "Ankara ilə birlikdə "Metsamor" təhlükəsini beynəlxalq təşkilatlarda davamlı gündəmə gətirmək lazımdır"

**A.Nağı vurğulayıb ki, köhnə stansiyada hər an dəhşətli partlayış baş verə bilər. Həm də Ermənistan kimyəvi tullantılarla öz ərazisindən keçib Azərbaycana, Türkiyəyə, İrana axan çayları zəhərləyir:** "Türkiyə mediası zaman-zaman məsələni gündəmə gətirir. İndi situasiya dəyişib və fərqli reallıqlar formalaşıb. Azərbaycan qalib mövqedədir və Türkiyə kimi güclü müttəfiqimiz var. Rusiya da regiondakı reallıqlarla hesablaşır. Ankara ilə birlikdə "Metsamor" təhlükəsini beynəlxalq təşkilatlarda davamlı gündəmə gətirmək lazımdır. İran da bizə dəstək verəcək, çünki onlar da çirklənmiş çaylardan əziyyət çəkirlər. Araz çayı ətrafında yaşayan insanlarda müxtəlif xəstəliklər, əsasən də xərçəngin yayıldığı deyilir. Bunların hamısı "Metsamor"un zərərli tullantıları ilə bağlıdır".

**İsmayıl Qocayev**

# Bakıda üçtərəfli görüşün görünən tərəfləri var

## "Altılıq platforması"nın yaradılması üçün "daşlar tam yerinə oturmalıdır"



**Sabah Türkiyə Respublikasının Xarici işlər naziri cənab Mövlud Çavuşoğlunun Azərbaycana rəsmi səfəri olacaq. Fevralın 19-da isə Gürcüstanın Baş nazirinin müavini-xarici işlər naziri cənab David Zalkaliani ölkəmizə gələcək. Bu barədə Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən məlumat verilib.**

Bildirilib ki, fevralın 19-da Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov, Gürcüstanın Baş nazirinin müavini-xarici işlər naziri David Zalkaliani və Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun iştirakı ilə 9-cu üçtərəfli görüşün keçirilməsi planlaşdırılır. Əlbəttə, üç regional ölkə arasında belə bir görüşün keçirilməsi ciddi perspektivlər vəd edir.

Üçtərəfli görüşün xüsusilə İkinci Qarabağ müharibəsindən sonra təşkil edilməsi bölgədə sabitliyin təmin olunmasına dair təşəbbüslərdən xəbər verir.

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu sözügedən görüşün müzakirə predmetlərini "Şərq"ə açıqladı:** "İndiyədək oxşar formatlarda görüş keçirilib. Əlbəttə, sözügedən üçtərəfli müzakirə də xüsusi əhəmiyyətlidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklif etdiyi "altılıq platforması" barədə danışılacaq. Eyni zamanda bildiyiniz kimi, Gürcüstanla Ermənistan arasında dəmiryolu xəttinin açılması gündəmdədir. Yəqin bu məsələ də müzakirə ediləcək. Hər halda Rəsmi Tbilisinin belə bir məsələyə müsbət cavab verəcəyinə inanmıram".

### "Gürcüstan haqlı olaraq Rusiya ilə eyni layihədə olmaq istəmir"

**E.Şahinoğlunun fikrincə, "altılıq platforması"nın yaradılması üçün "daşlar tam yerinə oturmalıdır":**

"Dörd dövlət bu təklifə artıq müsbət cavab verib. Ermənistan hazır olmadığını deyirdi. Lakin başqa alternativi yoxdur. Kreml bu məsələdə ona kifayət qədər təzyiq göstərir.

Gürcüstan isə haqlı olaraq Rusiya ilə eyni layihədə olmaq istəmir. Çünki Moskva onun torpaqlarını - Osetiya və Abxaziyanı işğal edib. Yəni Qərb qonşumuzun bu reaksiyası başadüşüləndir.

Əgər Rusiya altılıq platformasının yaradılmasını istəyirsə, onda işğalçılıq siyasətindən, separatçılıq meyillərindən əl çəkməlidir.

Əks halda Gürcüstan bu birliyə qoşulmayacaq. Onu da deyim ki, Azərbaycanın qələbəsi Gürcüstanın diqqətini çəkib. Bizim möhkəmlənməyimiz onun maraqlarına cavab verir.

Azərbaycan və Türkiyə də Gürcüstanla əməkdaşlığı genişləndirmək istəyir. Lakin orada bizə qarşı təxribat törədənlər gərək diqqətli olsunlar.

Bilsinlər ki, Azərbaycan əleyhinə hərəkət, həm də Türkiyəyə qarşı atılmış addımdır. Biz müharibə dövründə də faktiki olaraq vahid dövlət olduğumuzu göstərdik".

**Kənan Novruzov**



## Ciddi diplomatik oyun gedir

### Minsk qrupunu fəallaşdırmağa çalışırlar

**Xarici işlər naziri Ceyhun Bayramovun ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Stefan Viskonti (Fransa), Endryu Şofer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik ilə videokonfrans formatında görüşü keçirilib.**

Görüşdə tərəflər bölgədə mövcud olan cari vəziyyəti, o cümlədən 10 noyabr və 11 yanvar tarixli bəyanatların icrasını müzakirə ediblər.

Bölgədə dayanıqlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün etimadın bərpa olunması və əmin-amanlıq şəraitində birgəyaşayışın həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Görünür, həmsədrlər yenidən fəaliyyətə başlamaq istəyirlər. Halbuki, bu, lap "toydan sonrakı nağaranı" xatırladır. Oxucularımız yaxşı xatırlayarlar ki, Prezident İlham Əliyev vasitəçiləri sonuncu dəfə qəbul edərkən onları bura kiminsə dəvət etmədiyini bildirmişdi. Elə isə nə oldu ki, həmsədrlər "məzuniyyətdən qayıtmağa" qərar verdilər?!

**Keçmiş baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn Minsk qrupunun "qış yuxusundan oyanmasını" "Şərq"ə şərh etdi:**

"Onlar müharibəyəqədərki dövrün "qalıqlarıdırlar". Həm Ermənistan, həm də Qərb dairələri Minsk qrupunu fəallaşdırmağa çalışır. İndidən konkret nəsə demək çətindir. Hər halda ciddi diplomatik oyun gedir. Azərbaycan mütləq öz qətiyyətli mövqeyini ortaya qoymalıdır".

**Kənan**

# "Xocalı dəhşətlərini xatırlamaq çox ağırdır"

## Flora Qasımova: "Təsəvvür edin, qadın tanımadığı adamların qarşısını kəsib oğlundan danışırdı"

Bəşər tarixinə böyük faciə kimi yazılan Xocalı soyqırımından 29 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhəri işğal edildi. Soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib.

Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəferinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil.

Əslində, Xocalı faciəsi bir gecənin hadisəsi deyildi. Ermənilər bu faciəyə Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra hazırlıq görürdülər. Onlar Qarabağın digər ərazilərində belə faciələr törətməyə çalışsalar da, bunun ən dəhşətlisini Xocalıda həyata keçirdilər. Xocalı faciəsinə gedən yolun başlanğıcı isə Dağlıq Qarabağ münaqişəsinin daha aydın şəkildə meydana çıxdığı dövrə təsadüf edir. Elə həmin vaxtdan da Xocalı qətliamının əsası qoyulurdu.



**Sabiq millət vəkili Flora Qasımova xalqımıza qarşı törədilən Xocalı dəhşətləri ilə bağlı yaddaşındakı hadisələri "Şərq"ə danışıb:**

"O illəri xatırlamaq çox ağırdır. Xocalı hadisəsindən 10 gün əvvəl oğlum Ağdamda idi. Fevralın 16-da Ağdama getmişdim. Xocalılar vertolyotla az-az olsa da çıxarılırdılar. Bu günə kimi yadımdan çıxmaz: Gördüm ki, Ağdam bazarına gedən yolda park var idi, parkın içində bir qadın və yanında qız uşağı gəlib-gedənin qarşısını kəsib, "mən bilirəm, oğlum ölüb" deyirdi. Söyləyirdi ki, "oğlumun ürəyi xəstədir, nə qədər dedim ki, gəlsin gedək vertolyota, amma gəlmədi".

Təsəvvür edin, qadın tanımadığı adamların qarşısını kəsib oğlundan danışırdı. Həmin ananın görüntülərini unuda bilmirəm. Hadisə baş verməzdən qabaq yollar bağlanmışdı, ona görə camaatı vertolyotla çıxarırdılar. O günləri yada salmaq, camaatın başına gətirilən müsibətləri danışmaq çox ağırdır.



Təəssüf ki, neçə il müddətində heç olmasa, cinayətkarlardan bir nəfərin belə layiqli cəzasını verdirə bilməmişik. Düzdür, o zamanlar istintaq qrupu məsələni qaldırmışdı. Lakin Cümhuriyyətin süquta uğraması ilə bağlı məsələ yarımçıq qaldı. Hələ o illərdə azərbaycanlıların başına gətirilən faciələrin səbəbkarları cəzalandırılmadı. Həmin cinayətkarlar -Robert Koçaryan, Serj Sarkisyan kimi adamlar indi revanşist və həyasız sözlər danışırlar. Onlar niyə sağdır, axı nə üçün cəzalandırılmayıblar? İndi isə yenidən insanları Qarabağ uğrunda mübarizəyə səsləyirlər, gah müstəqilliyə can atıb, gah da ordu yığmaq istəyirlər".

**F.Qasımovanın sözlərinə görə, Xocalı hadisələri zamanı qadınların başına gətirilən müsibətləri yada salmaq çox ağırdır:** "Namusumuz, qeyrətimiz tapdalanmışdı. Bir rabitəçi qız var idi, indi adını unutmuşam. O, başına gətirilən müsibətlər barədə kitab yazıb. Həmin qız kitabı mənə verib, lakin hələ də açıb oxuya bilməmişəm. Necə ürək sahibi olasan ki, bir ermənin Azərbaycan qadınının başına gətirdiyi dəhşətləri oxuyasan. Adamın ürəyi partlayar...

Xalqımız dəhşətli günlər yaşayıb. Yalnız Xocalı faciəsi deyil, Qaradağlıda, Bağanıs-Ayrımda və başqa yerlərdə faciələr baş verib. Laçında nə qədər qadınlarımız özünü qayadan atıb. Nə qədər ki, erməni caniləri cəzasız qalıb, gələcəkdə belə hadisələri yenə yaşaya bilərik. Ona görə də yaxşı başladıq. Nəhayət, ordumuz Ali Baş Komandanın rəhbərliyi, xalqımızın birliyi ilə qalib gəldi. Torpaqlarımızı işğaldan azad etdik, lakin tam qələbəmiz o zaman olacaq ki, erməni caniləri məhkəmə qarşısında cəzalarını çəkəcəklər. Elə bir şəhər və kəndimiz yox idi ki, viran qoymasınlar. Cənab Prezident onlara yaxşı ad qoyub, vəhşi qəbilə. Doğrudan da onlar insan deyillər, faşizmin ən eybəcər formasıdırlar. Türkə qarşı nifrət bütün qanlarına işləyib. Ermənilərin bu xəstəliyi heç vaxt sağalan deyil".

**Yeganə Bayramova**

# Həmsədrlərin meydanda görünməsi xeyrə yozulmur

## Uğursuz formatın keçmişidə, gələcəyidə artıq Azərbaycana maraqlı deyil

Məlum olduğu kimi ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ilə videokonfrans formatında görüş keçiriblər. Həmsədrlər Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla və Ermənistanın Xarici işlər naziri Ara Ayvazyanla ayrı-ayrılıqda videokonfrans formatında danışıqlar aparıblar.



Danışıqlarda ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik də iştirak edib. Görüşlə bağlı bəyanatda qeyd olunub ki, həmsədrlər nazirlərlə bölgədəki sabitliyin təmin olunması, vasitəçilik prosesinin üsulları və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin rolu ilə bağlı fikir mübadiləsi aparıblar. Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında isə bir qədər fərqli açıqlamalar verilib. Vurğulanıb ki, görüşdə bölgədə mövcud olan cari vəziyyət, o cümlədən 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə edilib. Həmçinin, regionda dayanıqlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün etimadın bərpa olunması, əminamanlıq şəraitində birgəyaşayışın həyata keçirilməsinin vacibliyi qeyd olunub. Məsələ ondadır ki, Minsk qrupunun peyda olması ictimaiyyətdə xoş qarşılanmır. Ümumiyyətlə, "həmsədr" söhbəti cəmiyyətdə qıcıq doğurur və indiki məqamda "vasitəçilik missiyasına ehtiyac varmı" sualını ortaya çıxarır. Əksər ekspertlər də Minsk qrupunun "xortlaması"nı xeyrimizə yozmurlar. Bölgədə atəşkəsə nəzarət Rusiya və Türkiyə hərbçilərinin əlindədir. Digər humanitar missiya isə Rusiya-Azərbaycan-Ermənistan arasında həll olunur. Yəni münaqişə beynəlxalq gündəlikdən çıxmaq üzrədir. Minsk qrupu üçün yalnız bir məsələ qalır. O da Helsinki sazişi çərçivəsində məcburi köçənlərin geri qayıtmasına beynəlxalq dəstək verməkdir.

### Politoloq: "Xeyir vermək gücündə deyillər, heç olmasa, irəliyə gedən prosesə maneçilik törətməsinlər"

**Politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında bildirib ki, uzun zaman ATƏT-in Minsk qrupu dedikdə ağlımıza sadəcə "üçlük", yəni üç dövləti təmsil edən həmsədrlər gəlib. Ekspertin qənaətincə, artıq həmsədrlərin monopoliyası bitib:** "Rəsmi Bakı Minsk qrupunun həmsədrləri ilə bağlı konkret və qəti mövqeyini ortaya qoyub. Cəmiyyətimiz isə vasitəçilərdən çoxdan ümidini üzüb. Bəzən Minsk qrupunu fərqli formatda, başqa üzvlərin iştirakı ilə canlandırmaq təşəbbüsləri edilsə də, həmsədrlər buna imkan verməditlər. Hamıya aydındır ki, Qarabağ məsələsində Minsk qrupu uğursuz formatdır. Bu qurum uğursuzluq və fəaliyyətsizlik simvolu kimi qələmə verilir. Həmsədrlər dedikdə haqlı olaraq insanların ağlına həll prosesi deyil, uğursuzluq gəlir. Onların prosesə verəcəyi hansısa töhfə yoxdur".

*Analitik vurğulayıb ki, əgər həmsədrlər münaqişənin həlli tarixində adlarının qismən də olsa müsbət çəkilməsini istəyirlərsə, öz xoşları ilə uzaqlaşsınlar, sabitliyə doğru atılan addımlara kölgə salmasınlar:* "Xeyir vermək gücündə deyillər, heç olmasa, irəliyə gedən prosesə maneçilik törətməsinlər. Dəstəklərini istəmirik, sadəcə əngəl olmasınlar. Qarabağ məsələsi ilə bağlı proseslər həll yoluna girib. Problemin önəmli hissəsi çözülüb. Biz də bilirik ki, tərəflər arasında etimadı yüksəltmək üçün ciddi işlər görülməlidir. Amma bunu müəyyən zaman kəsiyində həmsədrlərin iştirakı olmadan da reallaşdırmaq mümkündür".

**İsmayıl Qocayev**



## Əfvi çox insan gözləyir

### "Bayrama qədər azadlığa buraxılanlar məlum olacaq"

**Fevral ayının 16-da Azərbaycan Prezidenti yanında Əfv məsələləri Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib.**

Komissiyanın üzvü Rəşad Məcid mətbuata açıqlamasında müzakirələr aparıldığını və 100-dən artıq müraciətə baxıldığını söyləyib. Eyni zamanda komissiyanın ardıcıl və məhsuldar işləyərək Novruz bayramına qədər müraciətlərə baxaraq yekunlaşdıracağını bildirib.

**Hüquq müdafiəçisi Səidə Qocamanlı "Şərq"ə bu işin bir sistemə çevrildiyini, hər il Novruz bayramı ərəfəsində əfvlərin olduğunu deyib:** "Əfv məsələləri komissiyası həmişə işləyib, indi isə məsələyə daha ciddi yanaşılır. Həmçinin əfvi də çox insan gözləyir. Bayrama qədər azadlığa buraxılanlar məlum olacaq. Biz də öz siyahımızı təqdim etmişik".

**Samirə**

# Üzü yazadır...

## Üçüncü dalğanın əvvəlkilər kimi fəsadları olmayacaq



"Pandemiyanın artıq üçüncü dalğası gözlənilir. Bütün dünyada, eləcə də ölkəmiz bu dalğadan yan keçməyəcək. Nəzərə alsaq ki, son günlər yoluxma sayı da stabil deyil. Yoluxma sayında qalxma və enmələr hiss olunmaqdadır. Düzdür, əvvəldən də birinci və ikinci dalğa gözlənilirdi. Lakin nə dərəcədə təhlükəli olacağı, nə kimi fəsadlara səbəb olacağı və təhlükələri barədə geniş informasiya yox idi".

**Bu sözləri "Şərq"ə açıqlamasında piar-marketoloq Rübabə Sahib deyib. O hesab edir ki, Azərbaycan bu xəstəlikdən ortalama olaraq az fəsadlarla qurtulan ölkələr sırasındadır:** "Ölkədə vaxtında düzgün ölçü götürüldüyü üçün müsbət nəticələrə nail ola bildik. Bütün ictimai nəqliyyatın, o cümlədən dəmiryolunun bağlanması sayəsində ölkəmiz pandemiyanın fəsadlarından az əziyyət çəkən ölkələr sırasında oldu. Təbii ki, burada ekonomi təsirləri deyil, fizioloji təsirləri biz əsas sayırıq. Üçüncü dalğanın da təbii ki, özünə görə yan təsirləri və ağır fəsadları olacaq. Ancaq hesab edirəm ki, əvvəlki iki dalğa kimi ağır fəsadları olmayacaq. Nəyə görə? Öncəlliklə, ikinci dalğa gəldiyində önümüz qışa idi. Bildiyimiz kimi, qış aylarında havanın kəskin soyuq olması orqanizmdə immunitet balansının da düşməsinə səbəb olur. Nəticədə avtomatik olaraq burda xəstəliklərin meyli daha da artır. Yəni qrip və digər infeksion xəstəliklərlə koronavirusun birləşməsi vətəndaşın xəstəlikdən daha ağır nəticələrlə yoluxmasına səbəb olur. Lakin indi üzümüz yazadır. Təbii ki, mart və aprel aylarında soyuqların olduğunu nəzərə alsaq da, əvvəlki aylarla müqayisədə havanın çox sərt keçməyəcəyini bilirik. Bu yalnız Azərbaycan üçün deyil, eyni zamanda digər ölkələr üçün də keçərlidir, yəni ciddi təhlükəsi yoxdur. Digər tərəfdən sürətli vaksinasiya prosesi gedir. Vaksinasiya prosesi sürətlə icra olunarsa, düşünürük ki, bir neçə ay sonra ölkədə böyük bir qism şəxs vaksinasiya olunmuş olacaq. Nəticədə xəstəliyin hərəkət və yayılma trayektoriyası məhdudlaşdırılacaq. Təbii ki, virus da özlüyündə yavaş-yavaş mutasiyaya uğrayaraq orqanizmdə zəifləməsinə və yox olmasına səbəb olacaq".

**Rübabə Sahib qeyd edib ki, üçüncü mərhələdə xəstəliyin uşaqlara təsiri çox olacaq:** "Məlum olduğu kimi, əvvəlki iki mərhələdə virus böyüklər üzərində kəskin və genişmiqyaslı şəkildə yayıldı. Bu mərhələdə isə uşaqlarda hiss olunacağını zənn edirik. Nə üçün? İlk olaraq, uşaqların orqanizmi qış mövsümündə qrip kimi infeksion xəstəliklərə meyilli olur. Eyni zamanda maddələr mübadiləsi məsələsi var. Qış aylarında təbii qidalar azaldığı üçün uşaqlara vitaminli qidaların qəbulu azaldılır. Bu da uşaqların orqanizmində vitamin balansının aşağı salır. Təbii ki, bu onların immunitetinə də ciddi təsir göstərir. Nəzərə alsaq ki, xroniki xəstələrlə müqayisədə uşaqların orqanizmi daha gənc və sağlamdır ona görə də onların xəstəlikdən ən ağır fəsadlarla deyil, yüngül, orta, orta ağır fəsadlarla qurtulacağını müşahidə edəcəyik. Bildiyimiz kimi, kəskin soyuq havada uşaqların orqanizminə mənfi təsir göstərir. Onların açıq havada təması məhdudlaşdırılmalıdır. Eləcə də uşaqların gündəlik oksigen qəbulu nizama salınmalıdır. Evdə otaqların havasına diqqət yetirmək labüddür. Uşaqların iliq su qəbulunun təmin edilməsi vacibdir. Çünki onlar suyu nə qədər çox qəbul edərlərsə, bu, onların bağırsaqlarının mikroflorası üçün bir o qədər əhəmiyyətlidir. Eyni zamanda vitaminli meyvələrdən - alma, heyva və nar kimi meyvə və tərəvəzlərin qəbuluna, təbii orqanik yumurta və toyuq ətindən istifadəyə xüsusi önəm verilməlidir. Həmçinin gündəlik sulu yeməklərin yeyilməsinə və onların yuxu rejiminə əməl olunmasına xüsusi diqqət edilməlidir. Bir nüansı qeyd edim ki, xüsusən də balığı uşaqların qida rasionuna daxil etmək mütləqdir. Balıq soyutması, qızartması, eləcə də balıqdan hazırlanan xörəklər çox vacibdir. Bu məsləhətlər böyüklər üçün də keçərlidir. Ümumiyyətlə, iki aylıqdan başlayaraq 17 yaşa kimi uşaqların qida rasionunda bunlar vacibdir. Əlavə olaraq, uşağın xəstələnməsini gözləmədən onları pediatr qəbulundan keçirtmək lazımdır".

### Ancaq bir məsələ var, üçüncü mərhələdə xəstəliyin uşaqlara təsiri çox olacaq

*Rübabə Sahib diqqətə çatdırıb ki, uşaqların düzgün psixoloji terapiyadan keçməsi də çox mühümdür:* "Hər bir kəs bilir ki, bir çox xəstəliklər məhz əsəb nəticəsində meydana gəlir. Diqqət yetirin. Hansı insanlar daha uzunömürlü olur? O insanlar ki, çox əsəbiləşmir, ağır nevrotik travmalar keçirmir. Bunlar uşaqlar üçün də əhəmiyyətlidir. Nəzərə alsaq ki, uşaqların idrakı, zehinsəl, fiziki inkişafı onların birbaşa psixoloji inkişafına bağlıdır. Psixoloji inkişaf isə onların ailə, məişət, sosial mühit zəminində düzgün təlim-tərbiyəsi nəticəsində meydana gəlir. Uşaqlara ilk növbədə ruh yüksəkliyi, qayğı, motivasiya və sevgi göstərilməlidir. Onların bütün bunlarla diqqətlə əhatə olunması əhəmiyyətlidir. Bütün bu qaydalara riayət olunduğu zaman inanın ki, koronavirusun fəsadlarından da qurtulmaq mümkündür. Hətta post-pandemiyadan sonrakı mərhələdə orqanizmin daha güclü olmasına və istənilən xəstəliyin mutasiyadan keçmiş versiyasına uğramamaq mümkündür. Özüm piar marketinqlə məşğul olduğum üçün hər gün həkimlərlə ünsiyyətdəyəm. Bu sahədə araşdırmalar aparıram. İlk növbədə özüm də anayam. Buna görə də, bu qaydalara xüsusilə riayət edirəm. Uşaqlar bu ölkənin gələcəyidir. Onların gələcəyini sağlam qurmaq isə bizim vəzifəmizdir".

**Aynurə Pənahqızı**

Seyran Səxavət -75

# "Azıx mağarası Adəmlə Həvvanın yataq otağıdır"

## Tanınmış yazıçıdan roman kimi ifadələr

**Müharibə həyatımızda elə iz qoydu, elə köklü dəyişikliklər etdi ki, bir ömür boyu bəlkə də "müharibə olmasaydı, belə olardı, elə olardı..." deyəcəyik. Bəlkə daha yaxşı olardı, bəlkə pis olardı... Kim bilir?...**

**Lent.az-ın "Müharibə olmasaydı..." layihəsində müharibənin həyatına birbaşa, yaxud dolayısıyla təsir göstərdiyi, həyatını dəyişdiyi insanlarla həmsöhbət olacağıq.**



*Bu dəfə yazıçı Seyran Səxavətlə müharibə və onun insan həyatına təsirlərindən söhbət açdıq. Həm də yazıçının 75 illik yubileyi günlərində.*

**- Bəlkə də bu barədə çox deyilib. Çox danışmısınız, amma layihənin kontekstində olduğu üçün bir fikrinizdən başlamaq istədim. "Kişilikdən istefa vermişəm" fikrini sizə Qarabağın işğalda olması dedirdib...**

- O fikri deyəndə əhalinin bütün təbəqələrinə aydın oldu ki, mən ata-anamın qəbrinin üstünə gedə bilmirəm, başım aşağıdır, başqa millətlərlə görüşəndə özümü 40 il əvvəlki kimi apara bilmirdim, pərt idim və bu pərtlik məişət pərtliyi deyildi, tarixi pərtlik idi. Başı aşağı, dili gödək, üzü qara idik. Böyük-böyük danışmaq qarabağlıların şakəridir, bilməmiş olmazsan. Bütün bunlardan məhrum olan adam özünü necə kişi hesab edə bilər? O vaxt elə də demişdim ki, nə qədər Qarabağ işğal altındadır, aşağıdan tutmuş yuxarıya qədər kim özünü kişi hesab edir etsin, mən özümü kişi hesab etmirəm və kişilikdən istefa verirəm. Mən bilən, haqlı idim. İstefa ərizəsini yazmışdım, o da qalmışdı, üstü yazılmamışdı. 44 günlük Vətən müharibəsində Azərbaycan əsgərindən mənə məktub gəldi ki, Seyran müəllim, sizin kişilikdən istefa haqqında ərizəniz qəbul olunmadı. İndi özümü 30-40 il bundan əvvəlki dəliqanlı Seyran kimi hiss edirəm. İnanın səmimiyyətimə, evdə arvad-uşağın da üstünə qışqıra bilmirdim ki, qayıdıb adama deyərlər ki, belə qışqıransan, qışqırmaq yerin var, get orda qışqır də.

Bütün bu şərtlər o istefanı elan etməyin səbəbi idi. Telekanallardan birində qonaq idik, məndən başqa da bir yazıçı vardı. Aparıcı da tutub durub ki, Qarabağ haqqında az yazılır. Dedim bala, onsuz da qonşular bizi aldadır, özümüz özümüzü niyə aldadaq? Mənim fantaziyam da var, istədadım da çatır, bir roman yazım, qıra-qıra gedək İrəvanı da geri alaq - kitabda. Mənə kitabda alınan Qarabağ lazım deyil, mənə o Qarabağ lazımdır ki, torpağını götürüb gözümə sürtə bilim. Vaqif Səmədoğlunun bir sözü vardı, deyirdi şeirlə, nəsrlə Qarabağ geri alınsaydı, təkcə Xəlil Rzanın şeirləri ilə düz İrəvana gedib çıxmaq olardı. Bir 15 ilin söhbətidir bu, dedim Qarabağ haqqında yazmağı yaxın dostlarım Musa Yaquba, Ramiz Rövşənə, Vaqif Bəhmənliyə də qadağan edirəm. Qarabağ haqqında ən ali əsəri Ali Baş Komandan yazacaq. Şükürlər olsun ki, Ali Baş Komandan bu əsəri yazdı. Son 200 ilin ən vacib əseridir. Yazıçılar Birliyində qəbul komissiyasının üzvüyəm mən də, Ali Baş Komandanı Yazıçılar Birliyinə üzv keçirdək və son 200 ilin ən vacib əsəri nominasiyası təsis edib, onu qalib elan edək. Uçmağa qanadım yoxdur, inanırsınız. Bənzəri olmayan tarixi hadisədir. Son 200 ildə ancaq paylaya-paylaya gəlmişik. İlkimiz mübarək olsun. Ali Baş Komandanı da, Azərbaycan əsgərini də Allaha əmanət edirəm. Allah da əmanətə xəyanət etməz, daha da gücləndərik.

**- Sizi bir az müharibədən əvvələ aparacam xəyalən. Qarabağ problemi olmayan Seyran Səxavəti xatırlayaq...**

- Yazı-pozuyla məşğul olurduq, dünyanı səyahət edirdik. Həftə səkkiz mən doqquz Füzuliyə gedirdim. Beşinci gün çatanda qaşınırdım. Uşaqları da götürüb gedirdim, onlar da öyrəşmişdilər.

**- Yağlıvəndə gedirdiniz?**

- Yağlıvəndə, Füzuliyə. Qarabağ elə-belə yer deyil. Erməni gedib başqa yerləri tutardı də. Bütün dünyada yüksəkliyə qalxdıqca oksigen azalır. Şuşa dünyada yeganə məkandır ki, aşağıdakı oksigen sıxlığı necədirsə, Şuşanın kəlləsində də elədir. Əslində, Azərbaycanda Şuşadan da dəniz səviyyəsindən yüksək yerlərimiz var. Xınalıqda, Qusarda, Kəlbəcərdə də var. Peşəkarcasına izah edə bilmirəm, amma möcüzədir. Deyirlər dünyada 11 iqlim zolağı var, 9-u bizdədir və 6-sı Şuşa və ətrafındadır, 3-ü Azərbaycanın qalan yerlərində. Orasını demirəm ki, ordan kimlər çıxıb, o haqda çox deyilir. Qarabağsız Azərbaycan onurğasının iliyi çıxarılmış möhtəşəm kişiyə oxşayır.

**- Elə möhtəşəm kişi olar, daha...**

- Ən qədim mədəniyyət Quruçay mədəniyyətidir. Quruçay mənim şəhərimin içindən keçir. Ondan 2 kilometr aralıda Azıx mağarası yerləşir. Azıx mağarası Adəmlə Həvvanın yataq otağıdır və ordan insan törəyib, bütün dünyaya səpələnib. Bu xalq da çox böyük xalqdır, sadəcə, yaddaş problemi var.

**- Tez unutduğuna görə?**

- Tez unudur. Sadəcə bu xalqın tez-tez özünü özünün yadına salmaq lazımdır, sən böyük xalqsan deyilməlidir. Deyilməlidir ki, özünü böyüklüyünə, ölçünə uyğun apar. Hər gözəlin bir eybi var. Biz də gözəlik xalq olaraq. Torpağın altı, üstü, hər yeri, dağı da, aranı da gözəldir. Yaddaş məsələsini də ziyalılar, kütləvi informasiya vasitələri nəzərdə saxlamalı və xatırlatmalıdır. Televiziyalar avara-avara işlərlə məşğul olmaqdansa bu yöndə layihələr etməlidir.

**- Müharibə başladı... Həyatınızda, yaradıcılığınızda hansı dəyişiklikləri yaratdı və bunlar yalnız mənfiyə doğru oldumu?**

- Müharibə nədir, hamı bilir. Dünyanı elə bil ələk kimi tərsinə çevirirsən. Sistemlər laxladı, dəyərlər dəyişdi. İnsanlar ümidsizləşdi. İndi mən yaradıcı insan olduğum üçün öz içimə bir süni ümid yaradıb qoymuşdum. Özüm özümü aldadırdım, o da məni sağlam saxlayırdı, məndən muğayat olurdu. Türklərdə bir beyt var, deyir -

**Öylə bir yalan de ki,**
**İnanmayım yalandır.**

Nə qədər qurbanlar verdik müharibədə. Nə qədər alçaldıq. Çox sevdiyim qarabağlı balası Fərhad Bədəlbəyli gözəl bir söz dedi ki, qastrollara gedəndə erməni görən kimi üzümü çevirirdim - ona görə yox ki, zəhləm gedir onlardan, ona görə ki, özümü pis hiss edirdim. Deyir, o da keçib qarşıma, necəliyimi soruşurdu. Torpaq qayıtmadı təkcə, özümüzün özümüzə inamımız qayıtdı. Bizi inandırmışdılar ki, döyüşə bilmirik, ancaq bazar adamıyıq. Sübut olundu ki, yanlış fikirdir. Ona görə böyük qələbədir bu. Məni tanıyanlar bilir ki, əlim heç vaxt yuxarıların ətəyində olmayıb. Mənim üçün yuxarı, aşağı yoxdur - mənim üçün bir meyar var - həqiqət. Həqiqət naminə deyirəm - bir az səbrli olaq. Rus mahnısında deyildiyi kimi "net, net, ya xoçu seqodnya, ya xoçu seyças" deməyək, vicdanlı olaq. Babalarımızın 200 ildə etdiyi səhvin hamısını birdən Ali Baş Komandandan tələb etmək olmaz ki, düzəlt. İnsaf, mürvət var. Həqiqətə söykənib deyirəm, həqiqət gözəl şeydir.

**- Müharibəyə qədərki yaradıcılığınızla, müharibədən sonrakı yaradıcılıq barədə düşüncələrinizdə nə dəyişdi?**

- Mən elə götürə bilmirəm, amma İkinci Dünya müharibəsi barədə əsərlərim olub. "Ağrı" povestim olub, məsələn. Bir ailənin öz yurdundan didərgin düşməsi haqda. O ailə əslində bizdə yaşayıb, mənim atam saxlayıb o ailəni. Bir şeirimdə deyilir ki,

**Neçə il qabaq evimizdən**
**çox-çox uzaqlarda**
**bir güllə atıldı.**
**Başladıq axtarmağa,**
**Bir nənəm oğlunu**
**Bir nənəm kürəkənini**
**Bir kəs dostunu**
**Anam da ərini.**
**Atama dəyən gülləni tapsaydıq**
**Ondan soruşardıq**
**Atamın yerini.**

Müharibə şərdi, onu heç kəs istəməz, istəyənlər var - adam deyillər.

**- Belə bir fikir də var - müharibələr ölkələri sivilizasiyaya qovuşdurur. Razısınız?**

- Onu deyən Allahsız adamdır. O hansı sivilizasiyadır? Qarabağda şəhərlərimizi darmadağın ediblər, evlərimizi yandırıb, məbədlərimizi təhqir edib erməni. Dünya ictimaiyyəti deyilən bunu görə-görə yenə erməninin tərəfini tutur. İnsanlar bir-birini qırır, məhv edir, bunun harasındadır sivilizasiya?

**- Müharibədən sonrakı inkişaf nəzərdə tutulur.**

- O inkişaf növbəti müharibəyə hazırlıqdır. Başa düşdün, mənim balam. Gör, müharibə olmasa necə olar. Ümumiyyətlə, çox inkişaf nəyə lazımdır? Bəsdir, dayanaq, yaşayaq daha. Bütün inkişafların kökündə, mayasında antibəşəri şeylər dayanır. İnkişaf həm də anti-inkişafdır. İnkişafla atom bombası yaratdıq. Bəşəriyyətin başı xarab olub. O ki qaldı yaradıcılığa təsirinə, müharibə olmasa da yazırdıq. Müharibə heç bir təsir göstərmədi yaradıcılığıma.

**- Mövzunu da dəyişmədi?**

- Mövzu yazıçının özüdür. Yazıçılıq xasiyyətimdir, müharibə olsun, yağış yağsın, sel olsun... hamısı o xasiyyət sahibi tərəfindən qəbul olunmağa baxır.

**- Zatən xasiyyətinizdə bir üsyankarlıq var, "mən özüm müharibəyəm" - qəbilli...**

- Hə də, özüm həmişə müharibə aparmışam. Qəhrəman obrazı yaratmaq istəmirəm e, görəndə ki, beşi birinin üstünə düşüb, girmişəm meydana. Görəndə kimsə qatığa qara deyir, tuturam yaxasından ki, vicdanın olsun, ağappaqdı axı. Çox yaxşı dedin, bu da müharibədir. Bir də var dövlətlər arasında müharibə. Əslində dövlətlər arasında müharibə elə fərdi müharibələrin mayasındandır.

**- Sizin "Qızıl təşt"iniz sovet dönəmində elə müharibə idi, həm də həyatınızı dəyişən müharibə...**

- Həm də siyasi büronun zamanında. O vaxt onu siyasiləşdirdilər.

**- Siz siyasi yazmamışdınız?**

- Yox e, mən felyetonçu deyiləm ki, kimisə nəzərdə tutum. Mən kommunist rejiminin əleyhinə yazmışam. O kommunist rejiminin ki, mənim Xalq Cümhuriyyətimi beşiyindəcə boğdu. O kommunist rejiminin əleyhinə ki, 1937-ci ili mənim xalqımın başına gətirdi. Gələk bir az bəri - o kommunist rejiminin əleyhinəyəm ki, 20 yanvar faciəsini gətirdi xalqımın başına. Xocalı soyqırımı törətdi, hələ arada çox olanları demədim. "Qızıl təşt" tamaşası Akademik Dram Teatrının səhnəsində anşlaqla gedirdi, o teatrın tarixində bəlkə elə anşlaq olmayıb. O əsəri yazmağımla həmişə fəxr etmişəm, indi də fəxr edirəm. Yazıçının missiyası yazmaqdır. İndi Allah saxlamışlar bir hekayə yazır, onqat təbliğatını qurur. Məncə, bu, məcburi köçkünlərə iki qutu yağ aparıb, onu 20 televiziyaya çəkdirməyə bənzəyir. İnsan bir az təbii olar, səmimi olar. Universitetlərdə səmimiyyət fakültəsi olmur, o, qandan gəlir. Gərək nəslində, kökündə, genetikanda, mühitində ola.

**- Sovet vaxtı belə sizin qəhrəmanlarınız müstəqil adamlar idi.**

- Yaxşı tutmusan, onlar sadəcə adamlardır, sovet adamları deyil. Azərbaycan xalqı 30 ildir müstəqildir, ondan neçə il də qabaq mən müstəqil idim. Mən azad adam olmuşam.

**- Sonuncu romanınız "Qaçhaqaç" adlanır. Həm də avtobioqrafikdir, yəni özümə həsr etmişəm demisiniz...**

- Bizim ədəbi tənqidçilərə sovet vaxtı muzdlu tənqidçilər deyirdim, indi də günəmuzd tənqidçilər deyirəm. Əslində "Qaçhaqaç"dan əvvəlki romanlarım da avtobioqrafikdir.

**- "Daş evlər" də?**

- "Daş evlər"də Akif mənəm. "Yəhudi əlifbası"nda, "Palıd toxumu"nda, başqa romanlarımda, povestlərimdə varam, hamısı elə avtobioqrafikdir. O sözü tənqidçilər uydurub. İnsan elə ömür boyu özündən yazır də. Sadəcə, bu "Qaçhaqaç", özü də iki kitabdır, mənim keçdiyim və məndən keçən adamlardır. Məlum adamlardır, tutaq ki, dünyanın tanınmış adamlarından Andrey Bitov, Şövkət Ələkbərova, Yusif Səmədoğlu. Onların adını çıxart, avtobioqrafiksiz-filansız bədii romandır.

**- Əslində, əsərinin hər sətirində yazıçı özü var.**

- Aşıq gördüyünü çağırar. Bütün yazıçılar var öz əsərlərində.

**- Eşitmişəm, hərdən yaxşı muğam oxumağınız var...**

- Var idi, indi səsim yoxdur. 60 illik yubileyimdə səsim cingildəyirdi, sonra xəstələndim, səsimə xırıltı gəldi. Qarabağlılar özləri öləndən 15 il sonra da hələ səsləri yaşayır. 60 illiyimdə Dədə Süleymanın qarşısında risk edib "Mirzə Hüseyn" segahı oxudum, çox təəssüf ki, şəkli qalıb, videoyazısı yoxdur. Qarabağda böyümüşəm, bizim tayfa Muradxanlı tayfasıdır. Bir kənd qədər böyük tayfadır, hamının səsi var, hamımız xanəndə ola bilməzdik ki, onda tayfa yox, xor kapellası olardı. Əvəz Muradov vardı oxuyanımız, Bahar Muradovanın atası. Səsi "Şahnaz"ın zilini götürürdü e. Biz Ağabala Abdullayevin "Segah zabulu"u ilə böyümüşük.

**- 75 yaşı tamamlayırsınız artıq, bu yaşda nə üzərində düşünürsünüz, nə üzərində işləyirsiniz?**

- Son beş-altı ayda öz üzərimdə işləmişəm, canıma baxmaqla məşğul olmuşam. Oramı, buramı redaktə edirəm, bərpa olunuram. Müstəqillik illərindən bəri beş mindən artıq müsahibə vermişəm, onlar elə bir kitabdır. Fikirlərimi bölüşəndə canım sağlamlaşır, bölüşməyəndə qalır, incidir.

(Davamı səh. 10)

# “Azıx mağarası Adəmlə Həvvanın yataq otağıdır”

*Tanınmış yazıçıdan roman kimi ifadələr*

(Əvvəli səh: 9-da)



**- Xəstəlik yaradır...**

- Hə, düz deyirsən, gərək danışasan çıxa canından. Mən Azərbaycan qazisiyəm. Canımda minimum 15 qəlpə var, çünki minimum 15 cildlik əsərim var ki, onları çap etdirə bilmirəm. Eləsi var, kirillə yazılan vaxtların əsəridir. Məni qazi hesab etmək olar də. 15 cildlik 15 qəlpə kimi varlığımda qalıb məni incidir. Yəqin ki, nə vaxtsa çap etdirə biləcəm.

İndi qayıdıram "müharibə olmasaydı" məsələsinə. Olmasaydı, Azərbaycan çox inkişaf edərdi. Müstəqil olduq, Şura hökuməti Qarabağ problemini yaradıb bizə müstəqilliyi haram etdi. Qarabağ dünyanın ən məhsuldar yeridir...

**- İnsanları da qarışqa kimi çalışqan.**

- Bəli. Hardasa torpaq yeyən uşaq eşitmisən? Amma Qarabağda balaca uşaqlar torpağı yeyirdi, yeməli torpaqdı. Bütün nemətlər torpaqdan bar verir də. Birbaşa ilkin mənbədən qidalanmışıq biz. Azərbaycan cənnətməkandı. O qədər inkişaf edəcəkdi ki, dünya heyran qalacaqdı.

**- Elə ona görə də etdilər o müharibəni.**

- Hə, əllərində "kozır" oldu Qarabağ. İndi vermişik beynəlxalq məhkəməyə, ödəyəcəklər vurduqları ziyanı. Azərbaycan süd gölündə üzəcəkdi, müharibə olmasaydı. Dünyanın ən inkişaf etmiş ölkəsi olacaqdı, mən də dünyanın ən inkişaf etmiş ölkəsinin vətəndaşı kimi əlimi cibimə qoyub yekə-yekə gəzəcəkdim. İnşallah, olacaq. Taledi, təkcə adamların yox, xalqın alın yazısıdır.

**- Bayaq dediyiniz o süni inamı bu gün baş verənlərlə bağlı yaşadırsınız içinizdə, yoxsa sabaha - yaxşı gələcəyə inanırsınız?**

- O süni inamı yaradıb onunla yaşamaqda çox çətinlik çəkmişdim, əslində, asan məsələ deyil. Qələbədən sonra bir də ayıldım ki, o süni inam yoxdur. Mənim Azərbaycanın gələcəyinə böyük inamım var. Xalqla dövlətin birliyi yaratdı məndə o inamı.

**- Tanrı doğrultsun o inamı, Seyran müəllim. Bəs, Yağlıvəndə gedə bildiniz?**

- Hə, getdim, çox pis oldum. O kəndin hər təpəsi, küncü mənə əziz, doğmadır və əzbər bildiyimdir. O deyil, viranədir, erməni xislətinin məhsuludur. Kəndimiz 7 obadan ibarətdir, böyük kənddir. Bizdən Şuşaya 45 km-dir. Meşə, dağ, cırcıramaların müşayiəti ilə gedib çıxırsan. Adı da tarixidir, özü də.

**- Abad günlərini görmək qismətiniz olsun, 75 yaşınız mübarək, 76-nı Yağlıvənddə qeyd etmək arzusuyla...**

## “Aqil Abbası tanıyıram, hörmətim var"

### Fikrət Qoca: “Lakin xalq yazıçısı olmaq istəyirəm deyib, birbaşa tələb etmək düzgün deyil”



**Millət vəkili, yazıçı Aqil Abbasın "Kulis.az"a müsahibəsində səsləndirdiyi fikirlər müzakirələrə səbəb olub. A.Abbasın Xalq yazıçısı adını almaq istəyini dilə gətirməsi də diqqət çəkib. Deputat deyib ki, həm yazdıqları ilə, həm də millət vəkili kimi xalqın qulluğundadır:**

"Niyə istəməyim? Xalqın yazıçısıyam da. Bu titulun mənə verilib-verilməyəcəyini bilə bilmərəm. Gərək Yazıçılar Birliyi, müvafiq qurumlar və şəxslər adımı təqdim edə".

**"Şərq"də AYB-dən Aqil Abbasın çağırışına cavab öyrənmək üçün qurumun katibi, Xalq şairi Fikrət Qoca ilə əlaqə saxlayıb. Şair adların dövlət tərəfindən verildiyini söylədi:** "Yazıçılar Birliyi qurultay ərəfəsində, tədbirlər olanda yazıçılardan, şairlərdən bir neçəsinə əməkdar incəsənət xadimi və sair adlar üzrə müraciət edir. İdarə heyətinin qərarı ilə adlar göndərilir, təqdim olunur. Sonra öz işlərinə görə seçilib, adlara layiq görülürlər. Aqil yaxşı yazıçıdır. Onu tanıyıram, hörmətim var. Amma özünün deməyi ayrı-seçkilik yaradır. Əslində Nizami dövründən Sovet dönəminə kimi belə adlar yox idi. Yaxşı şairsənsə, əsl yazıçısansa yaşayacaqsan, daim hörmət edəcəklər. Aqil həm də deputatdır. Millət vəkili kimi xalqdan səs istəyib, seçilə bilər. Lakin xalq yazıçısı olmaq istəyirəm deyib, birbaşa tələb etmək düzgün deyil".

**Fikrət Qoca ədəbiyyatdan da söz açaraq deyib ki, şeirdə qafiyənin uyğunlaşması, yazanın şair olduğu mənasına gəlmir:** "Məsələn, Moskvada Ədəbiyyat İnstitutundan məzun olmuşam, sonra Yazıçılar İttifaqında çalışmışam. O dönəmdə də şeirlərim çap olunurdu. Yəni ədəbiyyat da bir sənətdir. Məsələn, meyxana da var. Amma bunlar tamam fərqlidir. Meyxanaçı da deyə bilər ki, bir ad da mən istəyirəm. Hələ bizim idarədə hansısa müraciətə yox dediyimiz olmayıb. Siyahıda adları təqdim etmişik, titullar dövlətimizin qərarı ilə verilib. Xülasə, belə hay-küyü başa düşmürəm. Özünə xalq yazıçısı, ya da şair adını belə istəmək qəribə səslənir".

**Samirə Ərəbova**

# Qaradağlı faciəsində 91 nəfər qətlə yetirilib

*Boran Əzizli: “Qaradağlı faciəsini, məncə, Xocalı soyqırımının kiçik forması da hesab edə bilərik”*



Azərbaycan tarixinə qara hərflərlə yazılan Qaradağlı faciəsinin üzərindən 29 il ötür. Həmin soyuq, çovğunlu və bəlkə də, qarlı gündə 117 nəfər əsir alınmış, onlarca mülki şəxsi isə qətlə yetirilmişdi. Mənbələrdə yazılana görə, Qaradağlı kəndində 91 nəfər - kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib.

Öldürülənlərdən 21-i ahıl və qoca, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Kəndin 800-dək sakini məcburi köçkün vəziyyətinə düşüb. Qətlə yetirilənlərdən bəziləri xüsusi amansızlıqla öldürülüb. Məsələn, 3 kənd sakininin üzərinə dizel yanacağı tökülərək yandırılıb, 2 nəfərin isə başı kəsilib. Əlbəttə, məsələyə siyasi nöqteyi-nəzərdən yanaşsaq, qisasın qiyamətə qalmadığını əminliklə deyə bilərik. Ermənistan hərbi-siyasi hakimiyyəti törətdiyi əməllərə görə çoxdan peşman olub. Lakin tarix tarixliyində qalır...

**Tarixçi-alim Boran Əzizli Qaradağlı faciəsi barədə "Şərq"ə danışdı. Onun sözlərinə görə, bu, həmin illərdəki qətliamlardan sadəcə biri idi:** "Qaradağlı kəndi ermənilərə qarşı dörd il mübarizə aparıb və təslim olmayıb. Oranın insanları çox cəsur və mərddirlər. Bütün imkanları ilə müqavimət göstəriblər. Amma qeyri-bərabər şəraitdə yerli sakinlərə qarşı xüsusi amansızlıq törədilib. 91 nəfər öldürülən arasında yandırılanlar, diri-diri basdırılanlar, qulağı, burnu, başı kəsilənlər də var idi. Düşmənlər 1991-ci il sentyabrın 8-də Ağdamdan Qaradağlıya gedən maşındakı 7 nəfəri qətlə yetirdilər. Ümumiyyətlə, Qaradağlı faciəsində təkcə 366-cı motoatacı alayın üzvləri yox, həm də ayrı-ayrı ölkələrdə cinayətlər törətmiş terrorçular iştirak edirdi. Rusiyanın müsəlmanlara və türklərə qarşı yeritdiyi siyasətin tərkib hissəsi olan Qaradağlı faciəsini, məncə, Xocalı soyqırımının kiçik forması da hesab edə bilərik".

**B.Əzizli düşünür ki, biz tarixin acı həqiqətlərindən dərs çıxarmalıyıq:** "Kərkicahanda, Meşəlidə də oxşar qətliamlar törədilib. Əslində müstəqillik uğrunda çalışan, mübarizə aparan hər kəsə divan tutulurdu. Düşmən Qaradağlı istəyinə tam nail ola bilmədi. Beləliklə, çox keçmədən rus və erməni birləşmələri Xocalı soyqırımını törətdilər. Qoca, uşaq bilmədən qeyri-insani addımlar atıldı. Təəssüf ki, Qaradağlı hadisələri indiyədək lazımi qədər öyrənilməyib. Biz bu faciəni həm araşdırmalı, həm də dünyaya çatdırmalıyıq".

**Kənan Novruzov**

Siyasi partiyalara maliyyə yardımının göstərilməsi üçün 2021-ci ilin dövlət büdcəsində 4 milyon manat vəsait nəzərdə tutulub.



# Partiyaların pul problemi də həll olundu

*Sabir Rüstəmxanlı: “Maliyyə fəaliyyətimiz yoxlanılır”*

Bu barədə Maliyyə Nazirliyinin məlumatında qeyd olunub. İlin birinci rübü üzrə 10 siyasi partiyaya - Yeni Azərbaycan Partiyasına, Vətəndaş Həmrəyliyi Partiyasına, Ana Vətən Partiyasına, Demokratik İslahatlar Partiyasına, Azərbaycan Demokratik Maarifçilik Partiyasına, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasına, Böyük Quruluş Partiyasına, Vəhdət Partiyasına, Respublikaçı Alternativ Partiyasına və Milli Cəbhə Partiyasına ümumilikdə 857,5 min manat məbləğində vəsait ödənilib.

Vəsaitin ayrılması "Siyasi partiyalar haqqında" qanunun 17-1-ci maddəsinə uyğun aparılır. Dövlət büdcəsindən yalnız parlamentdə təmsil olunan partiyalara vəsait ayrılır. Siyahıda isə Vətəndaş Birliyi Partiyası yoxdur. Partiyanın sədri, deputat Sabir Hacıyev mətbuata açıqlamalarında bu vəsaitdən imtina etdiyini açıqlayıb.

**Maliyyə yardımına dair "Şərq"ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri, millət vəkili Sabir Rüstəmxanlı prosesin ədalətli olduğunu qeyd edib:**

"Hansı siyasi partiyalara maliyyə yardımının veriləcəyinə dair prinsiplər müəyyən edilməli idi. Artıq bu prinsip müəyyənləşdirilib. Dövlət Milli Məclisə seçilmiş partiyalara dəstək verir.

Hətta Parlamentə seçilməsə də partiyası seçkilərdə 3 faizdən çox səs toplayırsa, onlar da dövlətdən maliyyə yardımı alırlar. Lakin bu dəfə 3 faizdən yuxarı səs yığan yox idi. Beləliklə, əsasən parlamentdə təmsil olunan partiyalar maliyyə dəstəyi aldı.

Məbləğin az və yaxud çox olduğunu deyə bilmərəm, əsas odur ki, biz 23 işçimizə maaş veririk. Maliyyə fəaliyyətimiz yoxlanılır və bu barədə Mərkəzi Seçki Komissiyasına (MSK) məlumat verilir.

Yeni proseslər tamamilə şəffafdır. Şükür ki, ölkəmizdə bu şəffaflıq təmin olunur".

**Yeganə Bayramova**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Revanşistlər Ermənistanı daha ağır fəlakətə sürükləyir

## "Məğlub ölkədə sülh carçılarının səsi hələ çox zəifdir, hətta demək olar ki, eşidilmir"

Ermənistanda 10 noyabr üçtərəfli bəyanatı ilə razılaşmayan qüvvələr aktivlik nümayiş etdirir. Məğlub ölkədə sülh carçılarının səsi hələ çox zəifdir, hətta demək olar ki, eşidilmir. Revanşistlər və faşist təfəkkürdə olanlar isə gur səslə yenə erməni xalqını aldatmağa, Ermənistanı yanlış istiqamətə yönəltməyə, müharibənin hələ bitmədiyini "sübut" etməyə çalışırlar. Bununla da erməni xalqını növbəti və daha böyük fəlakətə sürükləyirlər.

Bir müddət əvvəl müxalifətdə olan "İşıqlı Ermənistan" partiyası parlamentdə 10 noyabr Bəyanatının ölkə qanunlarına uyğun olub-olmaması barədə müzakirə açmaq istəyib. Məsələnin parlamentin gündəliyinə salınması üçün səsvermə də keçirilib. Spiker Ararat Mirzəyan məsələnin gündəliyə salınmasına 40, əleyhinə 73 deputatın səs verdiyini bildirib. İqtidardakı "Mənim addımım" fraksiyası üçtərəfli bəyanatın müzakirə olunmasının parlamentin səlahiyyətləri çərçivəsində olmadığını açıqlayıb. Lakin müxalifət fraksiyaları israrla rəsmi Yerevanın imza atdığı kapitulyasiya sənədinin ölkə qanunları ilə uzlaşmadığını iddia edirlər. Şübhə yox ki, sülh və sabitliyə, qonşu xalqlarla əməkdaşlığa ən çox ehtiyac duyan məhz Ermənistandır. Ancaq buna nail olmaq üçün ermənilər ilk növbədə yeni reallığı qəbul eləməli, başlarından yekə iddialarla çıxış etməməlidirlər. Fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər zamanı Prezident İlham Əliyev də bu məqama xüsusi diqqət çəkərək Ermənistandakı revanşist təşəbbüslərə sərt reaksiya verib və düşmənə növbəti xəbərdarlığını edib. Dövlət başçısı bildirib ki, Ermənistandakı revanşist qüvvələr Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışır: "Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın". Prezident bildirib ki, biz erməni faşizmini artıq məhv etmişik: "Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını bizə qaytarsın. Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Biz döyüş meydanında düşməni məğlub edərək tarixi ədaləti bərpa etdik".

Ölkə rəhbərinin xəbərdarlığı Ermənistanla yanaşı, erməni lobbisinə və revanşistlərin xaricdəki havadarlarına da ünvanlanıb. Müşahidələr göstərir ki, kapitulyasiya edən ölkədə bu qəbildən avantürist çıxışlar məhz xaricdəki anti-türk, anti-Azərbaycan çevrələrinə arxayın olaraq edilir. Məhz bu qüvvələr bir əsrdən çoxdur erməniləri qonşularla, Azərbaycan və Türkiyə ilə barışığına imkan vermir. Bölgədə daim müharibə, qarşıdurma ab-havasının qalmasına çalışır. Halbuki, hazırda sülh və sabitlik tam iflas ərəfəsində olan Ermənistana hamıdan çox lazımdır. Prezident İlham Əliyev çıxışı zamanı region iqtisadi layihələrin, nəqliyyat dəhlizlərinin önəminə də toxunub və vurğulayıb ki, nəzərdə tutulan kommunikasiya layihələrinin reallaşması bütövlükdə bölgə xalqları üçün faydalıdır: "Bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu var. Burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək". Dövlət başçısı qeyd edib ki, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər: "Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran, Ermənistanla İran və Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər. Onu da bildirməliyəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlayıb. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişik, böyük iradə göstərmişik".

Həqiqətən də yeni nəqliyyat yollarının açılması, ticarət imkanlarının yaranması Cənubi Qafqazın inkişafına müsbət təsir edəcək. Region ölkələrinin ortaq layihədə yer alması regionun gələcək inkişafına ciddi töhfələr verəcək. Mühüm layihələrə qoşulmaq üçün Ermənistan revanşist cəhdlərə son verməli, ittihamlardan vaz keçməlidir. Yerevan hökuməti rəsmi Bakının şərtlərinə əməl etməklə böhran vəziyyətindən çıxa bilər. Həm də Türkiyəyə, İrana və Rusiyaya birbaşa çıxış imkanı əldə edər.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Prezident İlham Əliyev öz müdrikliyini bütün sahələrdə göstərib. Hərbçinin sözlərinə görə, müharibədən illər öncə dövlət başçısı Ermənistan rəhbərliyinə dəfələrlə konstruktiv mövqeyə gəlməklə bağlı çağırış edib.** Ölkə başçısı Yerevan hökumətini düşmənçilikdən əl çəkməyə, sülh danışıqlarına razılıq verməyə çağırırdı. Azərbaycanın səbrinin tükəndiyini, son nəticədə məğlub tərəfin məhz işğalçı Ermənistan olacağını bəyan edirdi: "Əgər Ermənistanın başında duran şəxslər Azərbaycan Prezidentinin uzaqgörən siyasətindən və xəbərdarlıqlarından düzgün nəticə çıxartmağı bacarsaydı, düşmən ölkə indiki faciəli vəziyyətə düşməzdi. Prezidentimiz nəticənin necə olacağını hamıdan yaxşı bilirdi və Azərbaycanın qələbəsinə zərrə qədər şübhə etmirdi. Ordumuzun bütün tapşırıqları yerinə yetirəcəyinə əminlik böyük idi. Ölkəmizdəki daxili sabitlik, iqtisadi inkişaf, iqtidar-xalq birliyi, cəmiyyətin Qarabağ məsələsində həmrəylik nümayiş etdirməsi torpaqlarımızın azadlığına və möhtəşəm qələbə qazanmağımıza gətirib çıxartdı. Məhz sadaladığım amillər bir yerdə yumruğa, "dəmir yumruğa" çevrildi. Cənab Prezident humanist xarakterindən dolayı müharibədən öncə Ermənistana davamlı xəbərdarlıq edirdi ki, sonradan peşman olmasınlar. Bilirsiz ki, Ermənistanda hakimiyyət dəyişikliyi baş verdi və Baş nazir Nikol Paşinyan oldu. İlk dönəmdə Paşinyana inam var idi, çünki o, Qarabağ problemini həll edəcəyi vədini vermiş, elə hakimiyyətə də bu vədlə gəlmişdi. Ona görə Paşinyana möhlət verildi və müharibənin başlanması yubandı. Lakin bir müddət sonra tamamilə fərqli, müharibə ritorikası ilə çıxış edən, ardıcıl sərsəm ifadələr səsləndirən, "Qarabağ Ermənistandır" deyən bir Paşinyan meydana çıxdı. Yerevan hökuməti nəinki problemi həll etmək, sülhə razılıq vermək barədə düşündü, əksinə, "yeni torpaqların işğalı" planlarını gündəmə gətirdi. Ötən ilin iyul ayında törədilən təxribatı isə səbr kasasını daşıran son damla oldu. Nəticədə Dəmir Yumruq Paşinyanın və işğalçı erməni ordusunun başına endi. 44 günlük müharibə ilə torpaqlarımızın böyük hissəsini azad etdik, Ermənistanı təslimçi sülhə məcbur qoyaraq, digər rayonlarımızı döyüşsüz boşaltmağa nail olduq".

*Ş.Ramaldanov qeyd edib ki, dövlət başçısı İlham Əliyev yenidən Ermənistana xatırladır ki, revanşist təşəbbüslərin cavabı bu dəfə lap ağır olacaq: "Ermənilər Azərbaycan Ordusunun güclü zərbəsini təzədən görmək istəmirlərsə, özləri revanşistlərin cavabını versinlər.* "Toydan sonra nağara" prinsipi ilə yaşamasınlar və xəbərdarlıqlara vaxtında məhəl qoysunlar. Prezident ümumən Cənubi Qafqazın inkişafını istəyir, bölgədə qalıcı sülh və əminamanlığın bərpa olunmasına çalışır. Ermənistan rəhbərliyinə, sağlam düşüncə sahiblərinə də çağırış edir ki, işğalçılıq ambisiyalarına son qoysunlar və qonşularla normal əməkdaşlıq barədə düşünsünlər. Çünki erməni xalqının rifahı bundan keçir. Ona görə də erməni xalqı bəzi siyasi dairələrin təxribatlarına uymamalıdır. Regionda kommunikasiyaların bərpası üçün öz hökumətlərinə təzyiq göstərməlidirlər".

"Erməni xalqı bəzi siyasi dairələrin təxribatlarına uymamalıdır. Regionda kommunikasiyaların bərpası üçün öz hökumətlərinə təzyiq göstərməlidirlər"

**Milli Həmrəylik Partiyasının sədri, Qarabağ qazisi Əlisahib Hüseynov da "Şərq"ə bildirib ki, Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər Ermənistanın bütün revanşist qüvvələrinə ünvanlanmış açıq xəbərdarlıqdır:** Prezident tamamilə haqlıdır, biz imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Vazgen Manukyan, Robert Koçaryan, Serj Sarkisyan kimi erməni faşizminin baniləri, "Miatsum" planının ideya müəllifləri artıq dərk etməlidirlər ki, indi 1988-ci il deyil. Ermənistanda hər kəs dövlət başçımızın bu xəbərdarlıq ismarıcını ciddi şəkildə götür-qoy etməlidir. Manukyan kimi qoca "qırğı"lar başa düşməlidirlər ki, xalqı meydanlara səsləmək heç də ağıllı və rasional hərəkət deyil. Bu cür revanşist cəhdlər Ermənistan üçün fəlakətli nəticələrə gətirib çıxara bilər. Onlar unutmamalıdırlar ki, biz bir dəfə Ermənistan ordusunu tamamilə darmadağın etmişiksə, bu dəfə "Dəmir Yumruğ"umuzun zərbəsi nəticəsində artıq Ermənistan dövləti tamamilə məhv olacaq. Dövlət başçımız real həqiqətləri açıqlayır. Bəzi faktları erməni liderləri özləri də etiraf etməli olurlar. Ermənistanın Baş naziri Nikol Paşinyan fevralın 10-da parlamentdə çıxışı zamanı 10 min fərarinin olduğunu həqiqətən də etiraf etmişdi. Ermənistan hökuməti Qarabağda verdiyi itkilərin rəsmi sayını açıqlamasa da, istər hərbi dairələr, istərsə də ölkə müxalifəti 44 günlük döyüşlər zamanı 6 min hərbçinin öldüyünü, 10 mindən çoxunun isə yaralandığını bildirir. Bütün bu real faktlar, həqiqətlər ortada ikən, Qarabağla bağlı üçtərəfli razılaşmaya görə Nikol Paşinyan hakimiyyətini kəskin tənqid edən və revanşist açıqlamalar verən Ermənistan müxalifətinin bəyanatları absurd teatrdan başqa bir şey deyil". Partiya rəhbərinin fikrincə, Ermənistan müxalifəti Azərbaycan Prezidentinin ismarıcından düzgün nəticə çıxarmasa, onların revanşizmi bütövlükdə erməni xalqı üçün tarixin sonunu gətirəcək: "Müzəffər Azərbaycan Ordusunun "Dəmir Yumruğ"u bundan sonra "domokl qılıncı" kimi daim Ermənistanın başı üzərində olacaq. Ermənistanın hakim və müxalifət dairələri həqiqətən də iddia etdikləri kimi vətənpərvərdirlərsə, o zaman 10 noyabr razılaşmasının bütün şərtlərinə qeyd-şərtsiz əməl etməyə çalışsınlar. Çünki bu, Ermənistanın yeganə çıxış yoludur, xilas vasitəsidir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Gec-tez polietilen torbalar sıradan çıxacaq

Polietilen torbalar istifadədən çıxacaq. Dərhal deyil, yavaş-yavaş. Baş nazir Əli Əsədov buna uyğun qərar imzalayıb. Qərar bundan ibarətdir ki, ticarət, ictimai iaşə, məişət və digər növ xidmətlərin göstərilməsi (işlərin görülməsi) zamanı istehlakçılar (alıcılar) tərəfindən malların və məhsulların daşınması üçün nəzərdə tutulan qalınlığı 15-50 mikron olan, qulplu və qulpsuz, yüngül çəkili polietilen torbalar istehlakçılara (alıcılara) ayrıca məhsul növü kimi təqdim edilməlidir.



Baş nazirin yeni qərarı ”Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nda dəyişiklik edilməsi haqqındadır. Qərara əsasən, bu növ məhsulların ayrıca təqdim edildiyi və satış qiyməti barədə istehlakçıya (alıcıya) əvvəlcədən məlumat verilməlidir.

Amma bu məsələdə təəccübə səbəb olan məqam var. Xatırladaq ki, ölkə Prezidentinin 2019-cu il 7 fevral tarixli ”Azərbaycanda plastik qablaşdırma tullantılarının ətraf mühitə təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı”na əsasən Milli Məclisdə ötən il ”Ətraf mühitin mühafizəsi haqqında” qanuna dəyişiklik qəbul edilmişdi. Layihədə qeyd edilirdi ki, qalınlığı az olan plastik torbalar çürüməyə qarşı davamlı olduğu üçün təbiətin çirklənməsində daha böyük rol oynayır. Sənədə təklif olunan dəyişiklikdə qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, ticarət, ictimai iaşə və xidmət obyektlərində istehlakçıya satılması və verilməsi qadağan edilirdi. Qanun layihəsinin polietilen torbalara münasibətdə 2021-ci il yanvarın 1-dən, digər birdəfəlik istifadə üçün nəzərdə tutulan məhsullara münasibətdə isə 2021-ci il iyulun 1-dən qüvvəyə minməsi təklif olunurdu.

*Amma məişət tullantılarını atmaq məsələsində problem yaranacaq*

İndi isə polietilen torbaların istehlakçılara - alıcılara satılması qərara alınıb. Bildirilir ki, polietilen torbalar satıldıqda onlara tələbat 50-60 faiz azalır. Yəni alıcı polietilen torbalara pul xərcləmək istəmir. Amma onlarsız da asan olmayacaq kimi görünür. Məlum məsələdir; polietilen torbalar ekologiyanı məhv edir. Ancaq problem bundadır ki, bazarlıq, alış-veriş edən insanların aldıqlarını necə, nə ilə paketləyəcəkləri də bilinmir. Bəzi super-marketlərdə ekoloji təmiz paketlər də təklif edilir, amma konkret məbləğə. Məsələn, 1 manata. Alıcılar 1 manat ödəyib ekoloji təmiz paket almağa da könüllü görünmürlər. O zaman problem necə çözüləcək? Üstəlik, əhali məişət tullantılarını da polietilen paketlərə doldurub atır. Bu paketlər istifadədən çıxacaqsa, məişət tullantıları necə atılacaq?

**”Altay” Sosial-İqtisadi Araşdırmalar Mərkəzi İdarə Heyətinin sədri, sosioloq Elçin Bayramlı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, bu, çox ziddiyyətli problemdir, tam həlli demək olar, mümkün deyil:**

- Çünki həyat tərzimizi buna uyğunlaşdırmışıq. Çıxış yolu bu paketləri müştərilərə pulla satmaq deyil, onların əvəzləyicilərini dövriyyəyə buraxmaqdır. Keçmişdə olduğu kimi, kağız, karton, parça paketlərdən istifadəyə keçmək lazımdır. Lakin zibil məsələsində problem yaranacaq. Yaxşı olardı ki, bunun bio-variantları istehsal olunsun. İstehsalçılara ilkin mərhələdə müəyyən güzəştlər də tətbiq edilə bilər, qarşıya qoyulan məqsədə daha tez nail olmaq üçün. Polietilen və pastik paket və qablar tam yığışdırılmalıdır, bu, insan sağlamlığı və təbiət üçün terror vasitəsidir. Yəni bu kampaniya əhalidən əlavə pul qoparmaq üçün yox, sağlamlıq və ekoloji mühit üçün həyata keçirilməlidir.

**Məlahət Rzayeva**

# Yerli-yersiz ”Qurana” and içmək yolverilməzdir

*İlahiyyatçıların bu mövzuda fikirləri fərqlidir*



Dinlə əlaqəli mövzular zaman-zaman cəmiyyətdə müzakirələr doğurur. Hər kəsin bu haqda müxtəlif fikri, fərqli yanaşması olur. Bəzən ziddiyyətli məsələlər də özünü büruzə verir. Eynilə ilahiyyatçı-alim Elşad Mirinin feysbuk profilindəki statusu kimi. O, "islamda Qurana and içmək yoxdur" deyə qeyd edib. İlahiyyatçının fikirlərini dəstəkləyənlərlə yanaşı, əksini düşünənlər də olub.

**Biz də Elşad bəyin özü ilə əlaqə saxlayaraq bu barədə ətraflı məlumat aldıq. E.Miri ”Şərq”ə dedi ki, bəziləri Qurandakı andları əllərində bayraq tutaraq bu kitabın insan sözü olduğunu iddia edirlər:** ”Bunu da and içməyin insana məxsus olması ilə əlaqələndirirlər. And içməyin, Allaha nisbətin düzgün olmadığını deyirlər. Lakin belə iddia sahibləri ilahi kitabın məğzini bilmədikləri üçün fikirlərini əsaslandırmağı bacarmırlar. Bəşər tarixi boyunca insanlar həm sözlərinə güc qatmaq, həm də qarşısındakını inandırmaq üçün dəyər verdiklərinə and içiblər. Biz əziz sayılan bir şəxsin və ya şeyin adını çəkməklə öz sözümüzə, vədimizə, yaxud öhdəmizə götürdüyümüz vəzifəni layiqincə yerinə yetirəcəyimizə inandırmaq üçün anddan istifadə edirik. Allaha and içərək onu şahid tuturuq və Allah vasitəsilə inandırmağa çalışırıq. Biz and içərək ya kiminsə inandırırıq, ya da and içilənə inanırıq”.

Ekspert həmçinin Qurandakı andlardan da söz açıb: ”Birincisi, ərəblərdə and içmək adəti var. Allah da həmin dilə və bu dildə danışanlara uyğun kitabında andlardan istifadə edib. And içilənlərin əhəmiyyəti xüsusi olaraq vurğulanır, dəyər verilir, ucaldılır. Məhşərlə əlaqəli hadisələrə diqqət cəlb edilir. Axirət barədə bilmədiyimiz məsələlərə diqqətimiz çəkilərək o biri dünya təsəvvürü formalaşdırılır. And içiləndən sonra gələn mövzu ilə əlaqə qurulur və onların əhəmiyyəti vurğulanır. Allah iradəli canlıları şahid, iradəsiz varlıqları isə dəlil olaraq göstərir. Göndərilən mesaja diqqət cəlb edilir. Mesajın göndərildiyi insanları məsuliyyətli olmağa və yanaşmağa, 24 cidiliyə dəvət edir. Adiləşən heyrətamiz hadisələrə diqqət çəkilir. Hər gün gördüyümüz və gözümüzdə adiləşən əhəmiyyət vermədiyimiz nemətlər xatırladılır. Səhv bilinən məsələlərə düzəliş olunur. Allaha and içilməsi kainatda yaradılan heç nəyin və heç kimin mənasız və məqsədsiz yaradılmadığını göstərməkdir. Yaradan bununla onların yaradılışı ilə öz yaradılışımız arasındakı əlaqəni qurmağımızı istəyir”.

**Şərqşünas Seyid Camal Əzimbəyli müqəddəs dəyərlərə yerli-yersiz and içməyin düzgün davranış olmadığını düşünür:** ”Dinimizin prinsiplərinə, islamın qaydalarına, hökmlərinə bələd olanlar bilir ki, Allah-təala ”Qurani-Kərim”də yalançılara lənəti vacib buyurur. Eynilə Qurana, yaxud da müqəddəs adlara yalandan and içənlərə olduğu kmi. Quran andının içilməsini təqdir etmirəm. Lakin Azərbaycanda tarixən dəyərlərə, sayğı-sevgi göstərilib. Xatırlayıram, Birinci Qarabağ müharibəsində yüzlərlə oğlumuz ”Qurani-Kərim”ə and içərək yola düşdü. Yaxud da Ali Baş Komandanın Qurana əl basaraq and içməsi də toxunulmaz dəyərlərdəndir. Ölkə başçısı Qarabağımızı işğaldan azad edərək andına sadiq qaldığını təsdiqlədi. Bu baxımdan Qurana and içilməsi təqdirəlayiqdir. Lakin yerli-yersiz ”Qurani-Kərim”i istismar etmək yolverilməzdir”.

**Samirə Ərəbova**

Azərbaycandan hava yolu ilə Türkiyə, Rusiya, Ukrayna və Gürcüstana səfər edən şəxslərdən tələb edilən sənədlər müəyyənləşib.




Bu barədə Dövlət Miqrasiya Xidmətinin məlumatında bildirilir ki, sadalanan ölkələrə səfər etmək üçün 48 saat əvvəl alınmış COVİD-19 testinin neqativ nəticəsi haqqında sənədi mütləq şəkildə təqdim etmək lazımdır. Rusiyaya getmək istəyənlərin tibbi arayışı rus və ya ingilis dilində olmalıdır. Türkiyəyə səfər edən 6 yaşa çatmamış uşaqlardan test nəticəsi tələb olunmur. Ukraynaya səfər edən şəxslər əlavə olaraq sığorta şəhadətnaməsini və Ukraynada yaşama icazəsi və ya Ukrayna vətəndaşının ailə üzvü olmadığı təqdirdə isə maddi vəziyyətini təsdiq edən sənəd (bank arayışı, nağd pul və sair) təqdim etməlidir. Gürcüstana səfər edən şəxslər tamamlanmış vaksinasiya (hər iki dozanın vurulması) haqqında sənəd təqdim etməlidir.

# Gürcüstana səfər edənlər mütləq vaksinasiya olunmalıdır

## Pandemiya ilə bağlı hər ölkənin öz şərtləri var

**Dövlət Miqrasiya Xidmətinin yanında İctimai Şuranın sədri Azər Allahverənov ”Şərq”ə açıqlamasında bildirib ki, pandemiya şəraitindən irəli gələrək xarici dövlətlər səfərlərlə bağlı qaydaları bir qədər sərtləşdirib:** ”Hər bir dövlət əcnəbiləri ölkəsinə qəbul etmək üçün hansı sənədlər və şərtlərin vacib olduğunu özü müəyyənləşdirir. Gürcüstan tərəfi üçün ora səfər edən əcnəbilər potensial təhlükə hesab olunduğuna görə şərtlər bir qədər sərt ola bilər. Hər hansısa şəxs Gürcüstana səfər etmək istəyirsə mütləq şəkildə vaksinasiya olunmalıdır. Lakin hazırda ölkəmizdə risk qrupuna daxil olan şəxslərin vaksinasiya prosesi gedir və özəl xəstəxanalarda pullu vaksinasiya həyata keçirilmir. İndiki vəziyyətə baxanda həmin ölkəyə səfər etmək bizim üçün hələ mümkün deyil. Gürcüstanda son aylar yoluxma sayında müşahidə edilən artımla əlaqədər olaraq, hökumət vətəndaşların sağlamlığını düşündüyünə görə belə bir tələb irəli sürür. Ukraynaya gəldikdə isə onlar indiki şəraitdə miqrasiya proseslərini effektiv bir şəkildə idarə etməyə çalışır. Bu hal başadüşüləndir. Müəyyən səbəblərdən irəli gələrək ölkəyə səfər edən şəxsin yaşama icazəsinin, yaxud ailə üzvlərindən birinin Ukrayna vətəndaşı olması mütləqdir”.

**Ekspert düşünür ki, bu məsələ ilə bağlı vəziyyət yaxın müddət ərzində düzələcək:** ”Pandemiya və hazırkı vəziyyət dövlətləri əcnəbilərin ölkəyə girişi ilə bağlı şərtləri sərtləşdirməyə vadar edir. Yaxın 2-3 ayda bu barədə tendensiyanın dəyişəcəyi güman edilir. Gedən proseslər onu göstərir ki, heç kim bu haldan məmnun deyil. Hesab edirəm ki, bu məsələ ilə bağlı müəyyən nüanslar öz yerini yaxın zamanda tapacaq”.

**Aytac Ali**

# 44 gündə tarix yazıldı

## *Vətən müharibəsi xalqımızı yumruq kimi birləşdirdi*



**Elnarə Əmirova İsax qızı, ADPU-nun nəzdində Azərbaycan Pedaqoji Kollecinin müəllimi**

Azərbaycanın şanlı tarixinə 10 noyabr günü qızıl hərflərlə daxil oldu. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi və düşmən məğlubiyyətini etiraf edərək ağ bayraq qaldırdı.

Düşmənin ağ bayraq qaldırması ilə yanaşı uzun illərdir işğalda olan ərazilər də öz həqiqi sahiblərinə qayıtdı. 10 noyabra qədər 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edilmişdisə, Ermənistanın məğlubiyyətini etiraf etməsindən sonra ardıcıl olaraq Ağdam, Kəlbəcər və Laçın rayonları da işğalçı qoşunlardan təmizləndi. Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladığı birgə bəyanat mahiyyət etibarı ilə Ermənistanın kapitulyasiyası idi. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan tərəfi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiyaya razılığını verdi.

Halbuki, Ermənistan hakimiyyəti Azərbaycanın ”dəmir yumruğ”unu öz üzərində hiss etməyənə qədər torpaqları geri qaytarmağa razılıq vermirdi. Şuşanı qondarma rejimin ”paytaxtı” etmək istəyir və Azərbaycanda qıcıq yaradacaq addımlar atırdı. Ermənistanın 30 il ərzində yaratdığı ordu sadəcə 44 gün tab gətirdi və beləliklə, dünya ictimaiyyətində Ermənistan ordusu haqda yaranan yenilməzlik mifi puç oldu. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməni iti qovan kimi öz ərazilərimizdən qovduq. Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək ən müasir silahlardan istifadə etməklə, habelə minimal itkilər verərək qısa müddət ərzində düşmənin bütün hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Heç şübhəsiz, Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı azadetmə əməliyyatı dünya hərb doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Xüsusən, yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın azad edilməsi əməliyyatı Azərbaycanın hərb tarixinin ən parlaq səhifəsi sayılır. Müharibə gedən günlərdə Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycan rəhbərliyinə diplomatik və siyasi təzyiqlər göstərilsə də, Prezident qəti siyasi iradəsini nümayiş etdirdi. Dövlət başçısı bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz



prinsipial mövqeyindən dönmədi. Ölkə rəhbərinin dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Düzdür, müharibə dövründə şəhidlərimiz, yaralılarımız, itkin düşənlərimiz də oldu. Lakin Azərbaycan xalqı torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş şəhidlərimizin xatirəsini necə uca tutduğunu, onlarla fəxr etdiyini nümayiş etdirdi. Şəhidlərimiz, qazilərimiz yenilməzlik və qəhrəmanlıq simvoluna çevrildi. Məhz onların sayəsində 30 ildir xalqımızın həsrətində olduğu torpaqlara, hər bir şəhərə, qəsəbəyə, kəndə qayıtdıq. Bu gün Qarabağda Azərbaycan bayrağı dalğalanır. Aydındır ki, müharibədə qələbə çoxsaylı amillərin bir-birini tamamlaması, ardıcıl, məqsədyönlü, kəsərli, ölçülüb-biçilmiş kompleks səylərin və mübarizənin nəticəsində əldə edilir. Lakin müharibə zamanı bütün xalqı ətrafında birləşdirib vahid məqsəd üçün səfərbər edən lider, Al Baş Komandan olmazsa, möhtəşəm qələbəyə nail olmaq mümkün olmazdı. Dövlətin başçısı milli ruhun daşıyıcısı və ilhamverici qüvvəsi olaraq bütün vətəndaşların güc və enerjisini Qələbəyə yönəltdi. Vətən müharibəsi insanların illər boyu vərdiş etdikləri həyat fəlsəfəsini dəyişdi, yeni bir təfəkkür hadisəsini - qalibiyyət fəlsəfəsini doğurdu. Ordu və bayraq sevgisini həmişəlik könüllərə və zehinlərə yerləşdirdi, hər kəsə yeni həyat gücü və enerjisi bəxş etdi. Fərdi qəhrəmanlıq qrup və kollektiv qəhrəmanlığı doğurdu, qısa zamanda bu, bütün xalqın qəhrəmanlığına yol açdı. Müharibənin ilk günündən Ali Baş Komandanın tam qələbəyə inamlı çağırışı, zəfər ümidli müraciətləri bütün xalqımızı qəhrəmana çevirdi. Qələbəyə fəlsəfi düşüncə ilə yanaşsaq, onun böyük dəyişdirici gücünü görərik. Əlbəttə, qələbəni təmin edən, yuxarıda da vurğuladığımız kimi, bütövlükdə dövlətdir. Dövlətin siyasi iradəsini, strategiya və taktikasını müəyyən edən, həyata keçirilməsinə rəhbərlik edən isə xalqın seçib mandat verdiyi dövlət başçısıdır. Prezident İlham Əliyevə 17 il ərzində xalqımızın mütləq əksəriyyətinin güvən və etibarı, onun şəxsiyyətinə, siyasi iradəsinə, vətənə və dövlətçiliyimizə sədaqətli xidmətinə xalqın inamı da bu tarixi qələbəmizdən sonra keyfiyyətcə yeni mərhələyə daxil oldu. Həm xalqımız, həm ordumuz, həm də Prezidentimiz üçün 44 günün hər biri şərəf və ləyaqət günü oldu. 44 günlük müharibə xalqımızın bütün mənsublarını istər ölkədə, istərsə də onun hüdudlarından kənarda bir yumruq kimi səfərbər edib birləşdirdi. 44 günlük müharibə tarixi yaddaşımızı oyatmaqla yanaşı, eyni zamanda, yaxın və uzaq gələcəkdə də bu yaddaşı oyaq tutmağı, heç bir kiçik təfərrüatı belə qətiyyən unutmamağı zəruri edir. Atalar məsəlimizdəki ”Qarı düşmən dost olmaz” deyimi tam ermənilərin boyuna biçilib. Yumruğumuz daim başlarının üstündə olmalıdır ki, Prezidentimizin dediyi kimi, bizim tərəfə baxmağa belə cəsarət etməsinlər. Qonşu olduğumuzdan qarşılıqlı kommunikasiya asılılıqlarına görə, xoş niyyətimizə görə təbii ki, ermənilərlə əməkdaşlıq edəcəyik. Lakin 30 illik erməni işğalının və 44 günlük qalibiyyətli Vətən müharibəsinin verdiyi mühüm dərslərdən biri hər zaman ehtiyatlı olmaq, düşməndən qat-qat güclü olmaq, onlara və havadarlarına xas olan yağlı dillərə və feillərə əsla uymamaqdır. Əminik ki, 44 gündə ruhumuza hakim olan bu həmrəylik və möhkəm birlik Vətənimizin bundan sonra da etibarlı müdafiəsində və qarşıdakı genişmiqyaslı quruculuq işlərində öz bəhrəsini verəcək. Heç şübhəsiz, aylar, illər ötəcək, bu müharibə və möhtəşəm qələbəmiz heç kəsin dilindən düşməyəcək. Kitablar, dərsliklər yazılacaq, bu müharibədə iştirak etmiş hər bir azərbaycanlı isə qəhrəmanlar olaraq anılacaq.

## İlahiyyatçı məmnun oldu

### “İzahlı dini terminlər lüğətinin nəşr olunması çox mühümdür”



**Ölkəmizdə hər il din sahəsində çox sayda əsər nəşr olunur. Təbii ki, dini nəşrlərin elmi və linqvistik keyfiyyətinin artırılması üçün vahid terminologiyanın yaradılması vacib idi.**

Məhz bu səbəbdən də Azərbaycan İlahiyyat İnstitutu (AİI) tərəfindən ”İzahlı dini terminlər lüğəti” nəşr olunub. Lüğət Azərbaycan İlahiyyat İnstitutu müəllim heyəti tərəfindən hazırlanıb. Terminlər əlifba sırası ilə verilib, lüğəti və terminoloji mənaları izah edilib. Qeyd edək ki, lüğət hazırlanarkən yalnız islam dini ilə əlaqəli terminlərin deyil, həmçinin digər böyük dünya dinlərində də istifadə olunan əsas ifadələrin izahı verilib. Terminlərin şərhləri və izahında həm yerli, həm də xarici ölkələrdə çap olunmuş elmi-dini ədəbiyyatlardan istifadə olunub.

**İlahiyyatçı-alim Hacı Atif İsmayılov ”Şərq”ə açıqlamasında bu nəşrin çox təqdirəlayiq olduğunu diqqətə çatdırıb. İlahiyyatçı-alim qeyd edib ki, izahlı dini terminlər lüğətinin nəşr olunması çox mühümdür:** ”Ümumiyyətlə, dini mənbənin əsas qaynağı ”Qurani-Kərim”ə söykənir. Dini hökmlər ”Qurani-Kərim”dəki qanunlara əsaslanır. Bildiyimiz kimi, ”Qurani-Kərim” ərəb dilində olduğu üçün burada bəzi sözlər terminoloji məna daşıya bilər. Bəzən şəriət sahibinin ərəb dilində istifadə etdiyi hər hansı bir kəlmənin də terminoloji mənası olur. Bu sözlərin hər birinin mənasının dəqiq bilinməsi çox vacibdir. Buna görə də belə bir kitabın nəşri çox mühüm idi”.

**Aynurə Pənahqızı**

# Yunanıstanın Azərbaycandakı səfiri ADU-da olub



Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla Yunanıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosla görüşüb. Qonağı universitetdə görməkdən məmnun olduğunu deyən rektor, iki ölkə arasında mövcud olan müxtəlif istiqamətli münasibətlərdən danışıb.

ADU haqqında səfirə məlumat verən Kamal Abdulla bildirib ki, təhsil ocağı Azərbaycanın xarici dillər istiqamətində formalaşmış xüsusi universitetidir: ”Bizim universitetdə 20-dən çox dil və mədəniyyət mərkəzi var. Onlar dünya dillərinin Azərbaycanda təbliği ilə məşğul olurlar və eyni zamanda bu dillər ixtisas kimi tədris olunur. Burada nəinki Avropanın baza dilləri, eyni zamanda uzaq və yaxın Şərq dilləri də ixtisas kimi tədris edilir. Məsələn, İndoneziya, yapon, Çin, Koreya dilləri öyrənilir. Yunan dilinin tədrisi yeni başlayıb. İnanıram ki, bu istiqamətdə öz hədəflərimizə çata biləcəyik. Bu, bizim üçün vacibdir. Çünki xalqlarımız arasında qədim tarixə söykənən mədəni-ədəbi əlaqələr, mifologiyalarımız arasında böyük bağlılıq var. Bir daha universitetimizə xoş gəlmisiniz. Böyük və möhtəşəm mədəniyyətə malik ölkənin nümayəndəsi ilə əməkdaşlıqdan çox şadıq. Ümid edirəm, bizim yunan universitetləri və mərkəzləri ilə əlaqələrimizin mövcudluğu və möhkəmlənməsində öz köməkliyinizi əsirgəməyəcəksiniz”.

Kamal Abdulla daha sonra diplomata ADU-da fəaliyyət göstərən ”Səfir saatı” layihəsi haqqında məlumat verib və ənənəvi təhsilin bərpasından sonra onu tələbələrlə görüşə dəvət edib.

Görüşdə eyni zamanda qonağa ”Kitabi-Dədə Qorqud” dastanı və yunan miflərinin birgə öyrənilməsi üçün müştərək elmi konfransların təşkili də təklif edilib.

Nikolaos Piperiqkosla Yunanıstan və Azərbaycan arasında mövcud olan əlaqələrdən danışıb, ölkəmiz haqqında xoş təəssüratını bölüşüb. ADU-da olmaqdan məmnun olduğunu deyən səfir universitetin elmi potensialını yüksək qiymətləndirib: ”Bütün görüşlərimdə azərbaycanlıların isti münasibətini hiss edirəm. Bizim Qafqazla Prometeydən başlanan mifoloji bağlantımız var. Əminəm ki, ölkələrimiz arasında universitetlər müstəvisində, eyni zamanda digər istiqamətlərdə olan əməkdaşlıq daha da inkişaf edəcək. Bu çox vacibdir. Yalnız sıx əlaqələr, qarşılıqlı əməkdaşlıqla öz böyük məqsədlərimizə nail ola bilərik”. Daha sonra ADU-nun Elmi işlər üzrə prorektoru, professor Novruz Məmmədov və Beynəlxalq əlaqələr üzrə prorektor, professor Jalə Qəribova Yunanıstan və Azərbaycan universitetləri arasında olan tələbə mübadiləsi, ikili diplom, elmi konfransların təşkilinin perspektivləri haqqında öz fikirlərini bildiriblər.

**Kənan**

# Daha yaxşı olar



## Yaşlı adamlara kompüteri övladları və nəvələri öyrətməlidir

BMT-nin Əhali Fondu və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi" birgə layihəsi çərçivəsində "Yaşlı şəxslərin yeni texnologiyalardan istifadəsinə dəstək" komponentinin DOST Agentliyi tərəfindən icrasına başlanılıb.

”Könüllü DOST”lar sırasından seçilmiş təlim koordinatorları tərəfindən pensiyaçılara evlərdə və ”DOST” mərkəzlərində təlimlər keçirilib. Təlimlərin ilk günündə 76 nəfər yaşlı şəxsə ”İnformasiya Texnologiyalarının əsasları”, ”İnternet və sosial şəbəkələrdən istifadə” və ”Elektron ödənişlərdən istifadə” mövzularında məlumat verilib.

"Gənclərlə yanaşı, yaşlı şəxslərin də rəqəmsal dünyaya adaptasiyası çox mühümdür"

**Rəqəmsal marketinq mütəxəssisi, texnobloger Fərid Pərdəşünas ”Şərq”ə açıqlamasında vurğulayıb ki, bu günləri yaşlı şəxslərin yeni texnologiyalardan istifadəsinə dəstək göstərilməsi çox mühümdür. Texnobloger qeyd edib ki, bunun üçün bir sıra layihələrin icrası məqsədəuyğundur:** ”Hesab edirəm ki, texnologiyaların yüksək inkişaf etdiyi bir zamanda gənclərlə yanaşı yaşlı şəxslərin də rəqəmsal dünyaya adaptasiyası çox mühümdür. Bunun üçün bir sıra proqramların icrası labüddür. Amma təəssüflər olsun ki, pandemiya səbəbindən bunun həyata keçirmək mümkün deyil. Düzdür, gələcəkdə belə tədbirlərin icrası nəzərdə tutulur. Qeyd edim ki, yaşlı şəxslərin yeni texnologiyalardan istifadəsi ilə ilk tanışlığı övladları və nəvələri vasitəsilə həyata keçirilməlidir. Təcrübə göstərir ki, adətən 40 yaşdan yuxarı şəxslərin texnologiya ilə tanışlığı məhz öz nəvələri, nəticələri sayəsində baş verib. Yaşlı şəxslər artıq bu məqamı keçəndən sonra onlar üçün bir sayt yaradılsa daha yaxşı olar. Həmçinin orada çox bəsit dillərlə ən adi texnoloji qaydaları onlara izah etmək olar. Yəni bir platforma yaratmaq olar ki, onlar da ora daxil olaraq müəyyən dərslikləri izləyə və daha rahat bir şəkildə sosial şəbəkələrə daxil olmağı öyrənə bilərlər”.

**Aynurə Pənahqızı**

## Bakıda qadına qarşı zorakılıq edən polis işdən qovuldu

### Videogörüntülər DİN-də hərtərəfli və operativ araşdırılıb

**Daxili İşlər Nazirliyi Yasamal rayonunda bərbərxanada qadına qarşı zorakılıq hərəkətləri edən polis əməkdaşı ilə bağlı araşdırmanı yekunlaşdırıb.**

Bərbərxanada qadına qarşı dələduzluq edən polis işdən kənarlaşdırılıb. Sputnik Azərbaycan-a bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov məlumat verib. O bildirib ki, həmin videogörüntülər DİN-də hərtərəfli və operativ araşdırılıb:

”İctimaiyyətdə narazılıq doğuran videogörüntü ilə bağlı araşdırma aparılıb. Bərbərxanada tibbi maskadan istifadə etməyən xanıma qarşı kobudluq edən şəxsin Yasamal RPİ 27-ci Polis Bölməsinin sahə müvəkkili Qubadov Camal Qubad oğlu polis adına yaraşmayan əməlinə görə tutduğu vəzifədən azad edilib”.

Xatırladaq ki, hadisə fevralın 12-si saat 16 radələrində Yasamal rayonu, Şıxəli Qurbanov küçəsində yerləşən bərbərxanaların birində baş verib. Yasamal RPİ 27-ci Polis Bölməsinin sahə müvəkkili Qubadov Camal Qubad oğlu bərbərxanaya daxil olaraq, qeydiyyatçı işləyən qadına maska taxmadığına görə cərimə yazacağını bildirib. Vətəndaş isə maska taxdığını bildirərək buna etiraz edib. Daha sonra isə sahə müvəkkili bərbərxanada həmin qadına qarşı fiziki təzyiq edərək onu itələyib. Ardınca isə polis əməkdaşı C.Qubadov həmin xanımı polis bölməsinə aparıb və ona cərimə protokolu yazılıb.

# İnsanların inanclarına hörmətlə yanaşılmalıdır

## Məktəbdəki hicab qalmaqalı qanundakı boşluqlardan qaynaqlanır

Novxanı kəndində yerləşən Mehdi Hüseynzadə adına 1 nömrəli məktəbin direktoru Taliyə Mirzəyeva başına hicab bağlamış şagirdi dərsə buraxmayıb. Sosial şəbəkədə yayılan məlumatlara görə, direktor şagirdin valideyninə də əsəbiləşərək "bura siz hicablılar üçün deyil, hamınızı İrana sürgün etmək lazımdır", - deyib. Valideynlərin sözlərinə görə, yaranmış gərginlik şagirdlərdə təşviş və qorxu yaradıb. Onlar valideynlərinə zəng edərək gəlib onları məktəbdən evə aparmalarını istəyiblər.

Məktəbin direktoru Taliyə Mirzəyeva isə Yenicag.az-a açıqlamasında rəhbəri olduğu təhsil ocağında hicab qalmaqalı haqda yayılan xəbəri təkzib edib. Məktəb direktorunun sözlərinə görə, məktəbdə hicablı şagirdə qarşı hər hansı təzyiq olmayıb və bu barədə irəli sürülən iddia əsassızdır: ”Məktəbimizdə 1 300 şagird təhsil alır, onların da 800 nəfəri qızdır. Ümumiyyətlə, bizim məktəbdə başı bağlı qız şagirdlərimiz və müəllimlərimiz yoxdur. Bu gün gəlib görürəm ki, 7-ci sinifdəki qız başını bağlayıb. Mən ona dedim ki, bayırda bağlayır, məktəbin daxilinə girəndə isə başını açacaq, yenə bayıra çıxanda bağlayacaq, gedəcək. Uşaq da elə başını açdı, girdi dərslərini keçdi, getdi. Çünki bir uşağın başı bağlı olsa, Novxanı da elə bir yerdir ki, orada Masallı, Lənkəran zonasından çox işləyənlər var və onların da hamısı sabah gələcəklər ki, uşaqların başını bağlayaq. Qız uşağıdır, nə şiddət olunacaq qıza? Özü də mən uşaqla yox, onun anası ilə danışdım. Anası ilə qapıda danışdım, uşaq da özü girdi soyundu çıxdı. Heç bir şiddət ola bilməz”.

**Məsələ ilə bağlı fikirlərini feysbuk üzərindən paylaşan araşdırmaçı jurnalist Kənan Rövşənoğlu isə ”Təhsil haqqında” qanuna düzəliş edilməsini vacib sayır:** ”Novxanı məktəbinin direktoru hicablı 7-ci sinif şagirdinin başını məcburi açdırıb. Sonra da deyib ki, sizi İrana sürgün etmək lazımdır. Bu gün isə mediaya açıqlamasında öz əməlini belə əsaslandırıb ki, bura Novxanıdır, cənub regionundan burda yaşayan çoxdur. Əgər hicaba icazə versə, məktəbdə şagirdlərin çox başını örtəcək. Belə adamlarla təhsil necə inkişaf eləsin? Araşdıracaqsan, kiminsə adamı çıxacaq. Biz də hələ böyük arzular, xəyallar qururuq. Problem qapımızın ağzındadır... Şagirdin baş örtüsünü məcburi açdırmaq olmaz. Baş örtüsü azaddır. Problem ”Təhsil haqqında” qanunundadır. İndiki qanunda geyim mövzusu məktəblərin nizamnaməsinə həvalə olunub. Buna görə də direktorlar başlarına görə qayda düzəldirlər. Amma bu, şəxsi iradəyə buraxılacaq məsələ deyil. Qanunla tənzimlənməlidir. Qanundakı boşluq direktorların belə özbaşınalığına səbəb olur. O zaman TN vəziyyətdən çıxmaq üçün başörtüyünü buraxdı məktəb nizamnamələrinə. Buna görə də indi direktorlar öz kefləri ilə davranır. Biri icazə verir, o biri vermir. Amma bu cür məsələlər qanunda sabitlənməlidir ki, belə özbaşınalığa şərait yaratmasın”.



"Vətən müharibəsində şahid olduq ki, baş örtülü 100-lərlə ananın övladı Vətən uğrunda canlarını nəzir etdilər"

**Şərqşünas Seyid Camal Əzimbəyli baş vermiş olayla bağlı ”Şərq”ə açıqlamasında bəzi məmurlar və vəzifə sahiblərinin Prezident Ilham Əliyevdən örnək almalarını tövsiyə etdi:**

- Azərbaycanda milli-mənəvi dəyərlərin ən böyük təəssübkeşi Prezident İlham Əliyevdir. Mən hər zaman bunu vurğulamışam və bildirmişəm ki, Azərbaycan dünyəvi dövlət və tolerant ölkə olmaqla yanaşı eyni zamanda əhalisinin 90 faizinin islam dininə mənsub olduğu və milli-mənəvi dəyərlərə qırılmaz tellərlə bağlı bir ölkədir. Ancaq təəssüf ki, bəzən mənəvi dəyərlərə hörmətsiz yanaşmaların da şahidi oluruq. Bu da həmin insanların dini etiqadlarının zəifliyindən irəli gəlir. Belə insanlarla söhbətlərimiz də olur və onlara anlatmağa çalışırıq ki, insanların inanclarına hörmətlə yanaşmaq dünyəvi, demokratik cəmiyyətlərin əsas meyarlarındandır. Necə ola bilər ki, Azərbaycan bütün dünyada tolerantlığın ən mükəmməl nümunəsi kimi örnək göstərilsin, amma daxildə bir məktəb direktoru başı örütülü şagirdə təzyiq etsin?! Əlbəttə uşaqların elmə, təhsilə sahib olması başlıca şərtdir. Çünki elm, təhsil olmayan yerdə cəhalət və xurafat olar. Lakin baş örtüsünü cəhalətə bağlamaq dini dəyərlərə qarşı hörmətsizlik və dözümsüzlükdür. Yəqin ki, aidiyyətli qurumlar bu məsələ ilə maraqlanacaq və obyektiv qərar qəbul edəcəklər. Vətən müharibəsində şahid olduq ki, baş örtülü 100-lərlə ananın övladı Vətən uğrunda, dövlətimizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını nəzir etdilər. Bu igidlər baş örtülü anaların Vətən sevgisi ilə tərbiyə almış oğulları idi. Belə həssas məsələlərdə inanclı insanlara qarşı tolerant davranılmasına ehtiyac var.

*Qeyd edək ki, Abşeron Rayon Təhsil Şöbəsindən Novxanı kənd 1 nömrəli tam orta məktəbin direktoru Taliyə Mirzəyevanın məktəbli qızın başından hicabını açaraq yerə atması ilə bağlı xəbərə münasibət bildirilib. Təhsil Şöbəsinin açıqlamasında bildirilir ki, məktəbdə baş verən hadisə ilə bağlı iddialar təhsil şöbəsinin əməkdaşları tərəfindən araşdırılıb:*

**”Məlum olub ki, iddialarda adı hallanan 7-ci sinif şagirdinin valideyni Q.İ. ilə direktor arasında heç bir insident yaşanmayıb. Valideynin məktəbdən və məktəb rəhbərliyindən heç bir şikayəti yoxdur. Sinif rəhbəri valideyn və şagirdlə görüşüb və növbəti dərs günündən şagird məktəbdə tədrisə davam edəcək”.**

**Məlahət Rzayeva**

# Bir ilin təbliğatı bəs etmir

*Bakıda hələ də koronavirusa inanmayanlar var*



Yanvar ayının 18-də Azərbaycanda koronavirusa qarşı vaksinasiyanın birinci mərhələsi başlamışdı. İkinci mərhələ isə fevralın 1-dən etibarən başlayıb.

Normal həyata qayıtmaq üçün vaksinasiya önəmlidir. Lakin regionlarda yaşayan əhali peyvəndləmə prosesinə kütləvi formada qoşulmur.

Azərbaycanda təxminən 50 mindən çox şəxs vaksinasiya olub. Amma peyvənd olunanların əksəriyyəti səhiyyə işçiləridir. Qardaş Türkiyə peyvəndləmə prosesinə bir neçə gün əvvəl başlasa da, artıq milyon nəfərin vaksinasiya olunduğu barədə məlumat verilir.

Dərman yoxdur, ucqar ərazilərdə yaşayanlar peyvəndləməyə də qoşulmasalar durumun necə olacağı bəlli deyil... Paytaxt Bakıda maarifləndirmə aparılır, regionlarda məlumatlandırma zəifdir.

Nə üçün regionda olanlar vaksin olmaq istəmirlər, maarifləndirmə yoxdur, yoxsa peyvəndə inam bəsləmirlər?

**Bu barədə "Şərq"ə danışan fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı bildirib ki, vaksinasiya könüllü həyata keçirilən prosesdir. Lakin xəstəliyə görə vaksinasiya olunmaq məcburiyyətindəyik:** "Hər kəsin evində televizor var. Xarici və yerli kanallar elə gün olmur ki, koronavirusla bağlı müzakirə aparmasın. Maarifləndirmə nə dərəcədə olmalıdır, insanlar bunu anlasın? Sadəcə başa düşmək istəmirlər. Hələ də koronavirusa inanmayanlar var. Paytaxt Bakının özündə "boş şeydir, yalandır" deyənlər var. 1 ilin təbliğatı təsir etmir. Elə bir adam qalmayıb, qohum-qonşusundan xəstəliyə yoluxan olmasın. Biz bundan artıq nə etməliyik? Cinayət işi açmalı deyilik ki. Cərimələr də tətbiq edildi, nə çarə. Xəstəliyə inanmayanlar, peyvəndləməyə də inanmırlar. Çox təəssüf ki, xəstəliyə yalan kimi yanaşanlar cahil insanlardır. Elmi, intellektual səviyyəsi yüksək olan, kitab oxuyan, hər hansı sahənin mütəxəssisi heç vaxt belə söhbət etməz. Onlar şüurlu surətdə anlayırlar. Vaksinasiya bu gün yaranmayıb".

**Ş.Namazlı deyib ki, illər ərzində müxtəlif xəstəliklər olub və hər birinə qarşı vaksin hazırlanıb:** "İnanmırlar inanmasınlar, nə qədər təbliğat aparmaq olar? Vaksinasiya olunmaq xəstəliyə bir daha yoluxmamaq mənasına gəlmir. Sadəcə həmin şəxslər yoluxsalar, xəstəliyi yüngül keçirdəcəklər. Əsas məsuliyyət tibb işçilərinin üzərinə düşür. Kanallar vasitəsilə maarifləndirmə aparmalıdırlar. Rayonda sahə tibb bacıları profilaktik olaraq insanları məlumatlandırmalıdır. Məktəblər müəyyən qədər açılıb. Tədris müəssisələrində də şagird və müəllimlərə məlumat verilməlidir. Əhalinin 50 faizi vaksinasiya olunarsa, işimiz çox yüngülləşər, ölüm halı müşahidə edilməz. Pandemiyanın kütləvi yayıldığı vaxtlarda xaricdə o qədər ölüm halı yaşanırdı ki, dəfn etməyə yer tapılmırdı. Bir sözlə, regionlardakı insanlar daxil olmaqla hər kəs bu istiqamətdə maarifləndirilməlidir".

**Aygün Tahirqızı**

## İctimai "wi-fi"yə qoşulmaq riskdir

"Bu ehtimalı nəzərə alaraq "wi-fi" parolunu paylaşmamaq ən etibarlı üsuldur"



**Pulsuz olaraq ictimaiyyətə təqdim olunan "wi-fi" xüsusilə mobil internetin olmadığı və ya yetərli olmadığı hallarda istifadəçilərə rahatlıq təmin edir.**

Bəs fərqli kanallardan gələn bir çox məlumat axınının olduğu bu şəbəkələrə etibar etmək nə qədər doğrudur? Gəlin birlikdə ictimai "wi-fi"yə qoşulma risklərini araşdıraq ...

Təcili olaraq internetə qoşulmağınız lazım olduğunda gördüyünüz hər hansı bir şifrəsiz "wi-fi" sizə ani bir xoşbəxtlik yarada bilər. Lakin bu şəbəkə şəxsi məlumatlarınızı kopyalamaq üçün hazırlanmış bir tələ ola bilər. Buna görə də, etibarlılığından əmin olmadığınız halda bu cür şəbəkələrə qoşulmaqdan çəkinməyiniz tövsiyə olunur. Hər hansı bir şəbəkəyə qoşularkən şəxsiyyətinizin qorunmasını təmin edən VPN (virtual özəl şəbəkə), xüsusən də ortaq "wi-fi" istifadəsində sizə etibarlı bir sahə təklif edilə bilər. Bu baxımdan pirat proqram inkişaf etdiricilərinin məlumatınıza giriş riski xeyli azalır. İnternet bankçılığı, alış-veriş saytları və e-hökumət sistemi kimi fərdi məlumatlarınızı geniş istifadə etdiyiniz saytlara ortaq "wi-fi" vasitəsilə qoşulmağınız kiberhücumlara şərait yaradır. Belə bir problemin qarşısını almaq üçün sözügedən saytlara ictimai "wi-fi" vasitəsilə daxil olmamaq ən etibarlıdır.

"Wi-fi "parolunuzu yaxşılıqla bölüşməyiniz isə sizin gələcəkdə bir kiber cinayət səbəbi ilə şübhəli olmağınıza səbəb ola bilər. Belə bir vəziyyətdə "bunu etmədim, qonşum və ya dostum etdi" demək sizə heç bir fayda verməyəcək. Çünki bunu sübut edə bilməzsiniz. Sözügedən "wi-fi" şəbəkəsi sizin üzərinizə qeydiyyatdan keçdiyindən birinci dərəcəli cinayətkar hesab olunursunuz. Bu ehtimalı nəzərə alaraq "wi-fi" parolunu paylaşmamaq ən etibarlı üsuldur.

**Aynurə Pənahqızı**

# Uşaqları "COVİD"dən yox, vərəmdən qoruyun

"Yeni vərəm əleyhinə peyvəndin də hazırlanması beynəlxalq və milli vərəm təşkilatları tərəfindən arzu olunur"

"COVİD-19 infeksiyası indiyədək uşaqlarda nadir hallarda ağırlaşmaya səbəb olub".

Bu sözləri "Şərq"ə açıqlamasında "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru, ictimai səhiyyə üzrə ekspert Pərvanə Vəliyeva söyləyib.

Ekspert vurğulayıb ki, pandemiya başladığı vaxtdan bəri uşaqlar ağırlıq dərəcəsi baxımından böyüklərə nisbətən daha az təsirlənir: "Bir qrup tibb alimi "Pediatriks" jurnalında dərc olunan "Uşaqlarda COVİD-19 və Ailələrdə İnfeksiyanın Dinamikası" üzrə tədqiqat işinin nəticələrində belə qeyd edilir: "Digər viruslu hava-damcı yolu ilə ötürülən yoluxucu xəstəliklərdən fərqli olaraq, uşaqlar "SARS-CoV-2" virusunun ötürülməsinin əsas vektoru sayılmır. Onlar adətən ailə üzvlərindən yoluxa bilir. Uşaqdan uşağa yoluxma və ya uşaqdan böyüyə yoluxma halları haqqında heç bir sübut yoxdur. Digər bir araşdırma uşaqların asimptomatik qalması, simptom öncəsi bir mərhələ keçdiyini və ya qızdırma, öskürək kimi simptomlarla müşayiət olunduğunu bildirir. ABŞ-da pediatrik koronavirus hallarının təxminən üçdə biri 15 ilə 17 yaş arası uşaqlarda meydana gəldi. Həmin tədqiqatda qeyd olunur ki, şiddətli kəskin tənəffüs çatışmazlığı sindromu "SARS-CoV-2" infeksiyası olan anaların yenidoğulmuşlarında şaquli ötürülmə riski sadəcə 2 faizdir". P.Vəliyeva qeyd edib ki, COVİD-19 virusunun uşaqlara təsiri az olsa da, vərəm onlardan yan keçmir: "Yeni növ koronavirus dünyada tüğyan etməyə başlamadan öncə dünyada ən çox insan ölümünə səbəb olan yoluxucu xəstəlik vərəm idi. Hər il dünyada 1 milyondan artıq uşaq vərəmlə xəstələnir. Ümumdünya Səhiyyə Təşkilatının vərəmlə bağlı 2020-ci il hesabatına əsasən, 2019-cu ildə dünyada 1.2 milyon 15 yaşadək uşaq vərəmə yoluxub. Vərəm qarşısı alınan və müalicə edilə bilən xəstəlik olsa da, dünya miqyasında uşaq ölümlərinin ilk səbəblərindən biridir. Vərəm ən çox gənc və həssas insanlara təsir edir: Uşaqlarda vərəmdən ölümlərin 80 faizi beş yaşdan kiçik olanlar arasında baş verir. Buna görə uşaq vərəminə son qoymaq 2030-cu il Davamlı İnkişaf Məqsədlərinin mərkəzində durur: "Yeni doğulmuş körpələrin və beş yaşınadək uşaqların ölümlərinə son qoymaq".



Cəmiyyətdə ictimai səhiyyənin uşaq sağlamlığına, onların sağ qalmasına və inkişafına təsirinin böyük olduğu dərk olunmalıdır. Dünya əhalisinin üçdə biri vərəmə yoluxsa da, hər kəs vərəmlə xəstələnmir. Uşaqlar vərəmə yoluxduğu zaman daha tez xəstələnə bilir və simptomlar daha sürətli özünü göstərir. Çünki onların immuniteti böyüklərə nisbətən zəif olur. Adətən uşaqlar vərəm xəstəsi ilə kontaktdan yoluxa bilirlər. Bu səbəbdən vərəm kontaktı (yaxın ailə üzvü, qohumları və digər təmasları) olan uşaqlarda profilaktik müalicə aparılmalıdır". İcraçı direktor bildirib ki, vərəm əleyhinə yeganə peyvənd - 100 yaşı olan "BCG" vaksini, yeni doğulmuş körpələrə vurulur və onları erkən uşaqlıq dövründə ən ağır vərəm növlərindən qoruyur: "Lakin yeniyetməlik dövründə bu peyvənd təsirini itirir. COVID-19 peyvəndlərinin sürətli inkişaf təcrübəsi öyrənilərək yeni vərəm əleyhinə peyvəndin də hazırlanması beynəlxalq və milli vərəm təşkilatları tərəfindən arzu olunur.

Vərəm peyvəndləri üçün maliyyənin öncədən toplanılması və yeni vərəm əleyhinə peyvəndi hazırlamaq üçün yeni elm və tədqiqat üsullarının tətbiq edilməsi təklif olunur. Uşaqlarda vərəmin diaqnostikası və müalicəsi xüsusi yanaşma tələb edir. Bu baxımdan onlara uyğun vərəm əleyhinə dərmanların mövcud olmasına baxmayaraq, dünya miqyasında vərəmdən ölən uşaqların 96 faizindən çoxu heç vaxt müalicə almır. Məktəbdə ayrı-seçkilik, stiqma bu problemi ikiqat artıran faktorlardandır.

ÜST-nin hesabatına əsasən, Azərbaycanda 2019-cu ildə 480 nəfər uşaq vərəmə yoluxub. Son illərdə uşaqlar arasında dərmanlara davamlı vərəm formaları da geniş yayılıb. Vərəmdən əziyyət çəkən uşaqlara dövlətimizin qayğısı böyük olub. Son illərdə cənab Prezidentin tapşırığı ilə yeni və müasir quruluşlu vərəm əleyhinə tibb müəssisələri tikilib. Buzovna qəsəbəsində yerləşən "Gindes" adına uşaq vərəm sanatoriyası yeni, hər cür müasir avadanlıqlar və şəraitlə təchiz olunmuş vərəm əleyhinə müəssisə ilə əvəzlənib. Sanatoriyanın yaxın zamanlarda istifadəyə verilməsi gözlənilir.

**Yeganə Bayramova**

## Qarabağın tarixindən daha bir film çəkilir

"Yox içində xarı bülbül" 12 seriyadan ibarətdir



**Xalq yazıçısı İlyas Əfəndiyevin "Qarabağnamə" əsərinin motivləri əsasında bədii film çəkilir.**

Azərbaycan Film Akademiyasının istehsalı olan "Yox içində xarı bülbül" 12 seriyadan ibarətdir. Ekran işində Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin qızı Ağabəyim Ağa və Qacar şahı Fətəli şah Qacardan bəhs olunur. Layihənin adı isə Ağabəyim Ağanın yazdığı "Vətən bağı" şeirinin misrasından götürülüb. Filmdə baş obrazı Xalq artisti Pərviz Məmmədrzayev və Əməkdar artist Vəfa Zeynallı canlandırır. Filmin quruluşçu rejissoru və ssenari müəllifi Zaur Tahirsoydur. Filmin tezliklə premyerası baş tutacaq.

**Elan**

Bakı şəhəri Akademik Ziya Bünyadov pr,122A ünvanında yerləşən "Prometal" MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

İsmayılov Bəxtiyar Məzahir oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeyman Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 321



## Azərbaycanda 100 yaşlı qadın peyvənd olundu

**Azərbaycanda 100 yaşlı qadın peyvənd olunub.**
Bu barədə İcbari Tibbi Sığorta Agentliyi məlumat yayıb.
Məlumatda bildirilir ki, Lənkəran rayon sakini, 100 yaşlı Şananə Mahmudova COVID-19 əleyhinə peyvənd olunub.

## Qızın mədəsindən topa saç çıxdı



**Daxili orqanlarında yığılmış nəhəng saç topu qızın mədəsini zədələyib.**
"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, hadisə ABŞ-da baş verib. İki dəfə huşunu itirən qız xəstəxanaya gedib. Müayinə zamanı həkimlər qızın qarnının yuxarı hissəsində bir kütlə görüblər. Həkimlər əməliyyat zamanı onun mədəsindən oval formalı, topa şəklində və 48 santimetr uzunluğunda saç çıxarıblar. Onlar saçın qızın mədəsini tamamilə doldurduğunu bildiriblər. Müayinə zamanı məlum olub ki, qız əvvəllər trikotillomaniya (saç yığma xəstəliyindən) əziyyət çəkib. 7 gündən sonra evə buraxılan qızın sağlamlıq vəziyyətinin yaxşı olduğu açıqlanıb.

**Aynurə**

## Pula görə 71 yaşlı kişiyə ərə gedib



**Kanadalı produser Deyvid Fosterlə ailə həyatı quran aktrisa Ketrin Makpi tənqidlərə tuş gəlib.**
Axşam.az xarici KİV-ə istinadən bildirir ki, Ketrinin sosial şəbəkə hesabından "Sonsuza qədər sevgilim. Ən yaxşı dostum. Ən yaxşı insan. Motivasiya mənbəyim" kimi sözlər paylaşması istifadəçiləri qıcıqlandırıb. Onlar Makpiyə əri ilə puluna görə evləndiyini bildirib. Cütlüyün olduqca böyük yaş fərqi var. Belə ki, Deyvid 71, Ketrin isə 36 yaşındadır. Bəzi sosial media izləyiciləri isə Ketrinin Fosterin artıq 5-ci arvadı olduğundan bu evliliyi rəsmi nikah adlandırmayıblar.

## Efirdə gərginlik yaşandı

### Yayım yarımçıq kəsildi




**Türkiyənin Atv kanalında ailə-məişət məsələləri ilə bağlı Müge Anlının aparıcılığı ilə yayımlanan proqramda yenə maraqlı anlar yaşanıb.**
8 ildir itkin düşən qızının tapılması üçün Müge Anlının verilişinə müraciət edən qadın buna görə günahkar bildiyi Murat Akının üstünə ayaqqabısını atıb.
Efirdə yaşanan gərginliklə əlaqədar olaraq yayım kəsilib.



# Tabutun içindən körpə yox, kukla çıxdı

### Ər arvadının hiyləsindən şok oldu



**Bu yaxınlarda Rusiyada saxta bir körpə və onun cənazə qalmaqalı baş verib.**
"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, ölkənin cənubundakı Stavropol bölgəsində yaşayan Dağıstan əsilli cütlüklər Davut və Laura uzun müddətdən sonra uşaq sahibi olmaq istəyiblər. Ərini itirəcəyindən qorxan Laura keçən il ailəsinə hamilə olduğunu və tezliklə övlad sahibi olacağına dair müjdə verib. Hətta Laura ərinə əkiz gözlədiyini açıqlayıb. Doqquzuncu ayın sonunda özünün uydurduğu yalana belə inanmağa başlayan qadın xəstəxanaya tərəf gedib-gəlməyə başlayıb. Epidemiyanı bəhanə gətirən Laura qohumlarının hətta onlarla birgə qalmasına məcbur edib. Sonradan xəstəxananın yaxınlığında bir ev tutan qadın bir neçə gününü burada keçirərək "körpə hekayəsi"ni necə bitirəcəyini planlaşdırmağa başlayıb. Laura oyuncaq mağazasından körpəyə bənzəyən iki kukla alıb. Bir neçə gündən sonra isə o, ailəsinə dünyaya gətirdiyi əkizlərin doğuşdan sonra bir xəstəlik səbəbindən xəstəxanada öldüyünü deyib. Öldüyü iddia edilən körpələrin cəsədlərini möhürlənmiş bir tabutda evə gətirilib. Kədərlənən ailə ölən körpələri üçün dəfn hazırlıqlarına başlayıb. Bu zaman ata Davut körpələrini bir dəfə də olsun görmək istəyib. Tabutu açanda isə şoka düşüb. O, kəfəndə uşaqlar əvəzinə kuklaları görüb. Həqiqət üzə çıxdıqda, Laura əvvəlcə kuklaların xəstəxana işçiləri tərəfindən tabuta qoyulduğunu iddia edib. Ancaq polislər xəstəxanaya gedəndən sonra işin əsl üzü açılıb. Məlum olub ki, Laura heç vaxt heç bir xəstəxanada doğum etməyib. Rusiyada geniş əks-sədaya səbəb olan bu hadisə indi polislər və psixiatriya həkimləri tərəfindən araşdırılır.

**Aynurə Pənahqızı**

## "Bu virus həmişəlik bizimlə qalacaq"

### Peyvəndin yaradıcısı: "Gələcək 10 ildə də bizə çətinliklər görünür"



**Koronavirus peyvəndinin yaradıcısı Uğur Şahin açıqlamasında "BioNTech"in xərçəng üçün immunoterapi müalicəsini qorumaq məqsədi ilə yaradıldığını bildirdi.**
Medicina.az -ın məlumatına görə, peyvəndin yaranması haqqında danışan Şahin əlavə edib ki, proyektə başlamazdan əvvəl bunun uğurlu olub-olmaması ilə bağlı heç bir fikirləri yox idi:
"Əsas məqsədimiz qısa zamanda peyvəndin yaradılması olub. Proyekti necə maliyyə edəcəyimizi bilmirdik. Məsələn, gələcək 2 il üçün ümumi büdcə 350 milyon dollar idi. Amma peyvəndin proyektinin 1.5 milyard dollar civarında olacağını bilirdik. Peyvəndi 10 milyondan çox insan üçün istehsal etdik. Bunu bütün dünyadakı insanlara çatdırmaq istəyirik. Görünən öldür ki, bu virus bizimlə qalacaq. Bu sadəcə 2021 və 2022-nin problemi deyil. Gələcək 10 ildə də bizə çətinliklər görünür".
*Həkim Özlem Türeci də əsas hədəflərinin mümkün olduğu qədər sürətli və təsirli bir peyvənd yaratmaq olduğunu qeyd edib:* "Bunun üçün "işıq sürəti" ilə proyektə başladıq. Peyvənd bərabər paylanılmalıdır. Peyvəndi yaradarkən də bir çox əngəlləri keçdik. Hələ də peyvəndin paylanılmasında bu çətinlikləri yaşayırıq".



## İnstaqramda ən çox onları izlədilər

**Yanvarda İnstaqramda ən çox izlənilən səhifələrin adları açıqlanıb.**
Axşam.az xarici KİV-ə istinadən bildirir ki, izləyici sayının çoxluğuna görə birinci yeri onlayn platformanın öz səhifəsi tutub. İnstaqramı yanvarda 385 milyon 39 min insan izləyib.
İkinci yerdə 258 milyon 69 min izləyici ilə Kriştianu Ronaldo, 3-cü yerdə isə 219 milyon 23 min izləyici ilə Ariyana Qrande qərarlaşıb.
Siyahının başqa pillələrində isə Castin Biber, Selena Qomez, Beyons kimi tanınmışlar yer alıblar.